# "Qisas" əməliyyatından sonra nisbi sakitlikdir

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır



**Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatından sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində, o cümlədən dövlət sərhədində nisbi sakitlikdir.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

"Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır", - nazirliyin məlumatında deyilir.



# Şəhidimiz Şəmkirdə dəfn olunub

**Avqustun 3-də şəhid olan əsgər Anar Kazımovun nəşi doğulduğu Şəmkir şəhərinə gətirilib və ailəsinə təhvil verilib.**

Şəhidlə vida mərasimində rəsmi şəxslər, şəhidin ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidimiz Şəmkir rayonu Qaracəmirli kənd qəbiristanlığında dəfn olunub.


❒ № 137 (5659), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 avqust 2022-ci il (cümə)





# TƏBİB meymunçiçəyinin əlamətlərini açıqlayıb

Qorunmaq üçün əllərinizi tez-tez sabunla yuyun!

**Dünyanın bir çox ölkəsində yayılmış meymunçiçəyi xəstəliyinin əsas əlamətləri açıqlanıb.**

TƏBİB xəbər verir ki, meymunçiçəyinin əlamətləri baş ağrıları, bədənin hər hansısa hissəsində yaranan qabarıq səpgilər, yüksək hərarət, düz bağırsaqda iltihab və ağrı, limfa düyünlərində şişkinlik və əsasən bel ağrıları ilə özünü biruzə verə bilər.

Əgər meymunçiçəyi xəstəliyinə yoluxduğunuzu düşünürsünüzsə həkiminizlə əlaqə saxlayın. Daha sonra həkim tövsiyəsinə uyğun olaraq meymunçiçəyi ilə bağlı test verin.

Meymunçiçəyindən qorunmaq üçün əllərinizi tez-tez sabun ilə yuyun, dezinfeksiyaedici vasitələrdən istifadə edin. Xəstəliyin simptomlarını hiss etdiyiniz insanlarla ünsiyyətdən çəkinin, onlarla aranızda fiziki məsafə saxlayın.



# Telefonla danışdılar

Çavuşoğlu Blinkenlə Azərbaycan və Ermənistan arasında dialoqu müzakirə edib

**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ABŞ dövlət katibi Entoni Blinken arasında telefon danışığının yeni təfərrüatı məlum olub.**

ABŞ Dövlət Departementinin məlumatına görə, tərəflər regional məsələlər barədə fikir mübadiləsi aparıblar.

Türkiyə və ABŞ xarici siyasət idarəsinin rəhbərləri eyni zamanda Azərbaycan və Ermənistan arasında dialoqu müzakirə ediblər.

Blinken həmkarının diqqətinə çatdırıb ki, Vaşinqton Azərbaycan və Ermənistan arasında dialoqun asanlaşdırılmasına və uzunmüddətli danışıqlara nail olunmasına töhfə verməyə hazırdır.

# Azərbaycanın döyüş təyyarələri və helikopterlərinin təlimləri başlayıb



**Cari ilin tədris dövrünün hazırlıq planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş təyyarələri və helikopterləri ilə təlim-məşq uçuşları keçirilir.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Hərbi pilotların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən məşqlərdə aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilir.

Təlimdə havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması üzrə tapşırıqlar pilotlar tərəfindən müvəffəqiyyətlə icra olunur.

# "Qisas" sülhə növbəti çağırışdır

## Azərbaycan öz ərazisində bütün hüquqlarını tətbiq edib, başa çatdıracaq




"Bizim qarşımızda dəqiq məqsəd və vəzifələr var. Onlardan biri də münaqişəyə qədər Xankəndidə, Xocalıda, Ağdərədə, Əskəranda və digər ərazilərdə yaşayan azərbaycanlıların öz evlərinə qayıtmasıdır"

**Erməni terrorçularının Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək cəhdləri bir əsgərimizin şəhid olması ilə nəticələndi. Azərbaycan Ordusu düşmən təxribatına cavab olaraq dərhal "Qisas" cavab əməliyyatına başladı. Əməliyyat nəticəsində terrorçu dəstələr ağır itkilər verdilər. Eyni zamanda Qırxqız yüksəkliyi, Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər hərbçilərimiz tərəfindən nəzarətə götürüldü. Erməni terrorçularının bir neçə döyüş mövqeyi dağıdıldı. Keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi.**

(səh.3)

# Kim necə istəyir geyinə bilər

"Bəlkə ölkəmiz şəriət qaydaları ilə idarə olunur, xəbərimiz yoxdur?"



**Bakının Lökbatan qəsəbəsində yerləşən "Meyvəli bazarı"nın girişində maraqlı elan yerləşdirilib.**

"Bəylər üçün şortikla bazara daxil olmaq qadağandır" yazısını özündə əks etdirən foto sosial mediada geniş müzakirələrə səbəb olub və ictimaiyyət tərəfindən tənqidlə qarşılanıb.

Kişilərin şort geyinməsi son illər ölkəmizdə xeyli adiləşsə də bu mövzu barədə müzakirələr nədənsə səngimək bilmir. Xatırladaq ki, bir müddət əvvəl Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) qeydiyyat və imtahan binası ilə bağlı da analoji hal yaranmışdı.

(səh.4)



# BMT-nin Baş katibi Qarabağdakı vəziyyətdən narahatdır

**BMT-nin Baş katibi Antonio Quterreş Qarabağda hərbi əməliyyatlar haqqında məlumatlardan dərin narahtlıq keçirir.**

"Report"un yerli bürosu xəbər verir ki, bunu Baş katibin sözçüsü Stefan Düjarrik jurnalistlərə açıqlamasında deyib.

"BMT Baş katibi Qarabağ ətrafında gərginlikdən dərin narahatlığını bildirib. Bu cür xəbərləri təsdiqləmək iqtidarında olmadığımız halda, tərəfləri təmkinli və aqressiv davranmamağa çağırır", - Düjarrik vurğulayıb.

# Koronavirusdan daha 3 nəfər ölüb

495 yeni yoluxma qeydə alınıb

**Azərbaycanda koronavirusa 495 yeni yoluxma qeydə alınıb, 360 nəfər müalicə olunaraq sağalıb.**




Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Məlumata görə, sutka ərzində koronavirusdan 3 nəfər ölüb. Ölkədə indiyədək 800 478 nəfər koronavirusa yoluxub. Onlardan 787 839 nəfər müalicə olunaraq sağalıb, 9 755 nəfər vəfat edib. Hazırda aktiv xəstə sayı 2 884 nəfərdir. Ölkədə son sutka ərzində 3 708, hazırkı dövrədək isə 7 058 973 test aparılıb.

# 25 manata heç İngiltərədə çay yoxdur

Bakı bulvarı artıq bizə deyil, ərəbə, ingilisə, fransıza xidmət edir



**AĞ Partiya sədri Tural Abbaslı "Prime TV"-də yayımlanan "Qırmızı masa" verilişində Dənizkənarı Bulvardakı kafelərdə insanlara təqdim olunan çay qiymətinin baha olması ilə bağlı fikirlər səsləndirib:**

"Mənim heç nəsil-kökümə bulvarda 25 manata çay içməyib. 25 manata da çay olar? Bu Xəzər kimindir? Bu Bakı kimindir? Biz öz Bakımızda qonaq kimiyik. Bulvarın kafeləri ərəbə, fransıza, ingilisə işləyir.

(səh.3)



# "Qisas"dan sonra Paşinyan oyun qurur

İrəvan Qarabağda Bakı və Moskvanı üz-üzə qoymağa çalışır

(səh.4)



# Hikmət Mirzəyevin fotosu altında gizlənən xain dərhal tapılmalıdır

Ələsgər Məmmədli:
"Saxta profillərdən istifadə etmək sosial şəbəkənin də daxili qaydalarına ziddir"

(səh.3)



# "Qisas" sülhə növbəti çağırışdır

## Azərbaycan öz ərazisində bütün hüquqlarını tətbiq edib, başa çatdıracaq

**Erməni terrorçularının Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək cəhdləri bir əsgərimizin şəhid olması ilə nəticələndi. Azərbaycan Ordusu düşmən təxribatına cavab olaraq dərhal "Qisas" cavab əməliyyatına başladı. Əməliyyat nəticəsində terrorçu dəstələr ağır itkilər verdilər. Eyni zamanda Qırxqız yüksəkliyi, Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər hərbçilərimiz tərəfindən nəzarətə götürüldü.**

Erməni terrorçularının bir neçə döyüş mövqeyi dağıdıldı. Keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və xeyli sayda döyüş sursatları məhv edildi. Prinsip etibarilə rəsmi Bakının belə bir əməliyyat keçirəcəyi bəlli idi. Məsələ ondadır ki, Ermənistan tərəfi 10 noyabr 2020-ci il tarixli bəyanatın 4-cü maddəsini yerinə yetirmirdi. Həmin maddədə açıqca qeyd edilir ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir". Lakin ötən müddət ərzində atılan addımlar Ermənistanın 10 noyabr 2020-ci il tarixli bəyanatın 4-cü maddəsini yerinə yetirmək istəmədiyini göstərdi. Nəticə etibarilə rəsmi Bakının Ermənistanın bu mövqeyinə adekvat cavab olaraq gec-tez hərbi əməliyyat keçirəcəyi gözlənilirdi. Əsgərimizin şəhid olması ilə nəticələnən qanlı insident həmin əməliyyatların başlamasını legitimləşdirdi. Müdafiə Nazirliyi rəsmi məlumatda nəzarətə götürülən ərazilərdə artıq mühəndislik işlərinin aparıldığını qeyd edib.

**Ermənistanla yanaşı, Rusiya da məsuliyyət daşıyır**

**Ekspertlərin fikrincə, əməliyyatların davam etməsi və yaxın zamanlarda təkrarlanması da mümkündür.** Politoloqlara görə, "Qisas" əməliyyatlarının diqqət çəkən məqamı Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan arasında Tbilisidə keçirilən görüşdən qısa müddət sonra baş verməsidir. Məlum olduğu kimi, XİN başçıları arasında ilk ikitərəfli görüş münaqişənin nizamlanması baxımından ciddi ümid yaratmışdı. Hətta təkbətək görüşdən sonra nümayəndə heyətlərinin iştirakı ilə geniştərkibli görüş keçirilmişdi. Əslində bu praktika bir daha göstərmişdi ki, rəsmi İrəvan və Bakı təkbətək qaldıqda münaqişəni nizamlaya bilərlər. Tbilisi görüşü hər nə qədər Gürcüstanın təşəbbüsü ilə reallaşmış görünsə də pərdə arxasında Vaşinqtonun olduğu açıq idi. Ümumiyyətlə, ABŞ indiki məqamda Ermənistan ilə Azərbaycan arasında münaqişənin bitməsini istəyir. Bunun əsas səbəbi Avropaya qaz nəqlinin artırılmasında Bakının perspektivli ölkə olması və Ermənistanın Qərbə inteqrasiya prosesi dayanır. Bu mənada qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinin Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətməsi Kremlin maraqları çərçivəsindədir. Rusiya indiki məqamda ABŞ-ın və ya başqa bir qüvvənin Ermənistan-Azərbaycan münaqişəsinə müdaxilə etməsinə razı deyil.

**"3 avqustdakı qanlı insident Ermənistanın öhdəliklərini yerinə yetirməməsinin nəticəsidir"**

**Azərbaycan Xarici İşlər Nazirliyi bildirib ki, yaşanan son gərginliyin səbəbi, məhz qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərində mövcudluğu və təxribatlara əl atmasıdır:** "3 avqust tarixində Azərbaycan əsgərinin şəhid olması ilə nəticələnən qanlı insident də məhz Ermənistanın öhdəliklərini yerinə yetirməməsinin nəticəsidir. Üçtərəfli bəyanatın 6-cı bəndinə istinad edərək, Azərbaycanı müvafiq müddəanın pozuntusunda ittiham edən Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, Laçın dəhlizi üzrə yeni yolun inşası razılaşdırılmış marşrut üzrə artıq uzun aylardır ki, gedir və Ermənistan tərəfi bu yol ilə bağlı kifayət qədər məlumatlıdır. Əgər Ermənistan tərəfi üçtərəfli bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədini güdürsə, bu, bir daha Ermənistanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir".

**"NATO Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasının tərəfdarıdır"**

**NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina "Twitter" hesabında yazıb ki, hərbi blok Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasının tərəfdarıdır:** "Biz insan itkisi ilə bağlı dərindən təəssüflənirik və hər iki tərəfi gərginliyi azaltmağa və danışıqlar masasına qayıtmağa çağırırıq. NATO Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına tərəfdardır".

> "Bizim qarşımızda dəqiq məqsəd və vəzifələr var. Onlardan biri də münaqişəyə qədər Xankəndidə, Xocalıda, Ağdərədə, Əskəranda və digər ərazilərdə yaşayan azərbaycanlıların öz evlərinə qayıtmasıdır"

Amerikalı ekspertlər isə hesab edirlər ki, Ermənistan silahlı qüvvələrinin təxribatları regionda sülh prosesinə ziyan vurur. Milli təhlükəsizlik üzrə analitik İ.Tsukerman deyib ki, erməni ordusu üçtərəfli bəyanat qəbul olunduqdan bəri həm Azərbaycanla sərhəddə, həm də Azərbaycan ərazisində rusiyalı sülhməramlıların mövcudluğuna baxmayaraq təxribatlar törətməkdə davam edir: "Beynəlxalq ictimaiyyət üçtərəfli bəyanatın icra olunması və qoşunların azad edilmiş ərazilərdən tam çıxarılması üzrə öhdəliklərin yerinə yetirilməsinin təmin olunması üçün Ermənistanla münasibətdə hər hansı bir tədbir görməyib. Bu şəkildə fəaliyyət göstərməyə davam etməklə, erməni qoşunları regionda sülh prosesinə ziyan vurur". Tsukerman bildirib ki, Ermənistanın addımları sülh müqaviləsinin imzalanmasına yönəlmiş işlərə ziddir: "Təəssüf ki, Ermənistanın təxribatları Azərbaycanı azad edilmiş ərazilərini bərpa etmək işindən yayındırmağa yönəlib. Ermənistan hərbi birləşmələrinin Azərbaycanın suveren ərazisində mövcudluğunun özü qəbuledilməzdir". Amerikalı ekspert Piter Teys öz növbəsində bildirib ki, Ermənistana üçtərəfli bəyanatı tam yerinə yetirməsi və Azərbaycana qarşı silahlı təxribatları dayandırması üçün təzyiq göstərmək lazımdır.

**"Kreml Qarabağda vəziyyətin gərginləşməsindən narahatdır"**

**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov da gərginliyə münasibət bildirib. O, Moskvanın hadisələri çox diqqətlə izlədiyini qeyd edib:** "Tərəfləri təmkinli olmağa, ən əsası məlum üçtərəfli sənədlərin bütün müddəalarına əməl etməyə çağırırıq". Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov isə bildirib ki, Qarabağda gərginliyin əsas səbəbi Ermənistanın üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməməsidir. Onun sözlərinə görə, avqustun 3-də baş verən insidentin ən başlıca səbəbi Qarabağın Rusiya sülhməramlılarının nəzarəti altında olan hissəsinin demilitarizasiyasının aparılmamasıdır: "Orada hələ də qanunsuz olaraq erməni silahlı birləşmələri qalır, hansı ki, hazırda onlar orada döyüşür. Bundan başqa, hələ də Azərbaycan-Ermənistan sərhədinin delimitasiya və demarkasiya olunmaması da regionda gərginlik yaradır. Digər mühüm məqam isə Zəngəzur dəhlizinin reallaşmamasıdır. Azərbaycan tərəfi bu dəhlizin öz ərazisindən keçən hissəsini reallaşdırır. Bu şərtlərdə potensial münaqişə üçün şərait yaranıb". Rusiyalı siyasi ekspert rəsmi İrəvanın 10 noyabr bəyanatının şərtlərini yerinə yetirməməsinin hərbi münaqişənin daha da genişlənməsinə səbəb olacağını vurğulayıb: "Əgər Ermənistan üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməsə, hərbi münaqişə davam edəcək, hətta genişlənəcək. Bu şərtlərdə Azərbaycanın təkbaşına Qarabağı, eləcə də Laçın rayonunu demilitarizasiya qərarı hər kəs tərəfindən, həm Azərbaycan əhalisi, həm də beynəlxalq ictimaiyyət tərəfindən anlayışla qarşılanır. Rusiya sülhməramlı qüvvələrinin güc yolu ilə demilitarizasiyanı həyata keçirməsi üçün təəssüf ki, tam mandatı yoxdur. Rusiya ancaq Ermənistanı üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməyə yola gətirə və çağıra bilər".

**"Qisas" əməliyyatı regionda sülhün yaradılmasına xidmət edir"**

**Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə vurğulayıb ki, Azərbaycan Ordusunun həyata keçirdiyi "Qisas" əməliyyatı antiterror əməliyyatıdır və regionda sülhün yaradılmasına xidmət edir.** Deputat bildirib ki, Azərbaycanın hər bir əsgəri dəyərlidir və əsla heç bir əsgərimizin qanı yerdə qalmayacaq: "Erməni terrorçuları dəqiq bilməlidirlər ki, Azərbaycan ərazisini tərk etmək istəməyən silahlı quldurlar eyni aqibəti yaşayacaq. Məsələnin hüquqi tərəfinə gəldikdə isə Azərbaycanı "3 avqust əməliyyatı"na təşviq edən erməni təxribatı olub. Terrorçu Ermənistan dövləti bu günə qədər 10 noyabr üçtərəfli bəyannaməsində üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyib. Üstəlik, bəyannamənin 4-cü və 6-cı bəndlərini manipulyasiya etməyə çalışıb. Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Laçınla bağlı son açıqlaması da bunun sübutudur. Bu özlüyündə siyasi-diplomatik təxribatdır. Bəyannamədə Rusiya sülhməramlılarının daxil olmasına paralel olaraq bütün erməni terrorçu birləşmələri Azərbaycan ərazisini tərk etməli idi. Ancaq bu günə qədər hələ də suveren ərazilərimizdə erməni silahlı quldurları var. Üstəlik, sülhməramlıların arxasında gizlənərək şanlı Azərbaycan əsgərini şəhid ediblər". Parlament üzvünün fikrincə, Azərbaycanın beynəlxalq hüquqla və Milli Konstitusiyası ilə tam haqqı var ki, öz ərazisində suveren hüquqlarını təmin etsin: "Qisas" əməliyyatı da buna xidmət edirdi. Bizim qarşımızda dəqiq məqsəd və vəzifələr var. Onlardan biri də münaqişəyə qədər Xankəndidə, Xocalıda, Ağdərədə, Əskəranda və digər ərazilərdə yaşayan azərbaycanlıların öz evlərinə qayıtmasıdır. Bu məsələ də üçtərəfli bəyannamədə öz əksini tapıb. Üçtərəfli bəyannamənin bütün tələbləri qeyd-şərtsiz yerinə yetirilməlidir. Ermənistan kapitulyasiya aktı ilə üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirməyənə qədər bu cür antiterror əməliyyatları həyata keçiriləcək. Vaxt demək olar ki, yoxdur. Azərbaycan öz ərazisində bütün hüquqlarını tətbiq edib, başa çatdıracaq. Buna qarşı gələnləri isə yeni antiterror əməliyyatları gözləyir. Ermənistan bilməlidir ki, nə dünya 30 il əvvəlki dünya, nə də Azərbaycan 30 il əvvəlki Azərbaycandır. 44 günlük müharibənin dərsini düşmən unutmamalıdır. Əks təqdirdə yeni faciələrə hazır olmalıdırlar".

**Döyüş coğrafiyasının əhəmiyyəti nədədir?**

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli vurğulayıb ki, Sarıbaba yüksəkliyi - Şuşa işğaldan azad edildikdən sonra Laçın dəhlizi Qarabağda yaşayan ermənilərin Ermənistana gediş-gəlişi təmin etmək məqsədilə müvəqqəti şəkildə rus sülhməramlılarının nəzarətinə verilib.** Nəticə etibarilə Azərbaycan bir müddət istifadə etdiyi Xankəndi - Şuşa magistralından imtina edərək, Zəfər yolunu inşa edib: "Bütövlükdə isə Daşaltıdan Şuşaya qalxan yol istisna olmaqla, digər marşrutlar müəyyən qədər təhlükəsiz deyildi. Şuşa özü isə ümumilikdə üç tərəfdən müəyyən təhlükələrə məruz qala bilərdi. Amma Sarıbaba Laçın dəhlizinə 2 km, Laçın-Şuşa yolunun üzərində yerləşir. Ağdam, Şuşa, Laçın, Kəlbəcər, Sisian, Qafan kimi mərkəzlərə birbaşa və ya dağ yolları ilə keçən ənənəvi xətlərin mərkəzində yer alır. Hündürlüyə malik olmaqla, cənub cəbhəsini tam, şərq və şimal cəbhəsini qismən, Laçın-Şuşa yolunu tam nəzarətdə saxlamağa imkan verir. Sarıbabada cəmləşən zərbə dəstələri göstərir ki, prosesin ana xətti Laçın dəhlizinin boşaldılması, yeni yolun işə salınması gələcəyə yönəlik bütün hərbi-coğrafi üstünlükləri əldə saxlamağa, Şuşanın təhlükəsizliyini tam təmin etməyə yönəlikdir.

Qırxqız dağı Azərbaycanın Qarabağ silsiləsinin şimal ərazisində Laçın, Kəlbəcər və Xocalı rayonunun ərazisini əhatə edən dağ silsiləsidir. Başqa sözlə, dağın əldə edilməsi - Kiçik Qafqazın Qarabağ hissəsində 3 min metr hündürlükdən bütün Xocalının nəzarətə alınması, yenə Laçına nəzarətin təmin edilməsidir".

**İsmayıl Qocayev**

# Türkiyə Ali Hərbi Şurasının növbəti iclası keçirilib

## 16 general və admiralın rütbəsi yüksəldilib, 47 polkovnikə isə general və admiral hərbi rütbələri verilib



**Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Ali Hərbi Şurasının (Yüksek Askeri Şura-YAŞ) növbəti iclası keçirilib.**

İclasdan əvvəl Şura üzvləri Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət ediblər.

Əvvəlcə Türkiyənin Dövlət Himni səsləndirilib, Prezident Rəcəb Tayyib Ərdoğan Anıtqəbrin "Xatirə kitabı"nı imzalayıb.

Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın Ali Hərbi Şuranın iclasının qərarlarını açıqlayıb.

Bildirilib ki, Türkiyə Silahlı Qüvvələrinin Baş qərargah rəisi, ordu generalı Yaşar Gülərin səlahiyyət müddəti daha bir il uzadılıb.

Hərbi Dəniz Qüvvələrinin komandanı ordu generalı Adnan Özbal və Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Hasan Küçükakyüz təqaüdə çıxıblar.

İclasın qərarına əsasən, avqustun 30-da qüvvəyə minməklə 16 general və admiralın rütbəsi birqat yüksəldilib, 47 polkovnikə isə general və admiral hərbi rütbələri verilib. Bundan başqa, ordu generalı Ercümənt Tatlıoğlu Hərbi Dəniz Qüvvələri komandanı, ordu generalı Atilla Gülan isə Hərbi Hava Qüvvələri komandanı təyin ediliblər.

# Putin Təhlükəsizlik Şurasını toplayıb

## Qarabağda baş verənlər müzakirə edildi



**Rusiya prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının daimi üzvləri ilə operativ iclasda Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla gözlənilən danışıqları, Qarabağda vəziyyətin gərginləşməsini və ölkənin sosial-iqtisadi inkişafı məsələlərini müzakirə edib. Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlayıb.**

"Putin Təhlükəsizlik Şurasının daimi üzvləri ilə operativ iclas keçirib. İclas iştirakçıları Rusiya-Türkiyə yüksək səviyyəli danışıqları kontekstində fikir mübadiləsi aparıblar", - Peskov bildirib.

Xatırladaq ki, danışıqlar avqustun 5-də Soçidə baş tutacaq.

Mətbuat katibinin sözlərinə görə, görüşdə ölkənin sosial-iqtisadi inkişafı məsələlərinə də baxılıb.

"Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsi ilə bağlı vəziyyət də müzakirə olunub. Üçtərəfli sazişin bütün müddəalarının təcili yerinə yetirilməsinin zəruriliyi vurğulanıb", - Kreml sözçüsü bildirib.

# Türkiyə və Amerika xəttində "taxıl dəhlizi"...

## "Çavuşoğlu-Blinken görüşündə Türkiyə-ABŞ münasibətləri də dəyərləndirilib"



**Ankara-Vaşinqton xəttində kritik görüş keçirilib. Xarici işlər naziri Çavuşoğlu ABŞ Dövlət katibi Blinken ilə Ukraynadan taxıl ixracını müzakirə edib. Türkiyənin Xarici İşlər Nazirliyindən verilən məlumata görə, Çavuşoğlunun Blinkenlə görüşünün əsas gündəm bəndi taxıl dəhlizi olub.**

"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, açıqlamada, Ukrayna limanlarında gözləyən təxminən 25 milyon ton taxılın ixracı üçün imzalanan müqavilənin və bu çərçivədə taxıl dəhlizindən ilk gəminin keçməsinin müzakirə edildiyi bildirilib. Çavuşoğlu-Blinken görüşündə Türkiyə-ABŞ münasibətləri də dəyərləndirilib.

**ABŞ-dan Türkiyəyə tərif və dəstək...**

ABŞ Dövlət katibi Antoni Blinken Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə telefon danışığında Türkiyəni taxıl daşınmasında göstərdiyi diplomatik səylərə görə tərifləyib. Blinken vurğulayıb ki, Rusiyanın Ukraynaya genişmiqyaslı işğalının başlamasından bəri ilk Ukrayna taxıl yükünün Qara dənizi tərk etməsinə səbəb olan Türkiyənin diplomatik səyləri təqdir edilməlidir. Dövlət katibi taxıl müqaviləsi çərçivəsində Ukrayna limanlarından daha çox gəminin çıxa bilməsi üçün birlikdə işləməyin vacibliyini vurğulayıb. Moskvanın üzərinə götürdüyü öhdəliklərə görə məsuliyyət daşımasının vacibliyini qeyd edib.

**Qarabağda daimi həlli vacibdir**

Görüş zamanı Blinkenin Qarabağ məsələsini də gündəmə gətirdiyi vurğulanıb. ABŞ rəsmisi Azərbaycan və Ermənistan arasında dialoqun asanlaşdırılması üçün səy göstərməyə hazır olduğunu deyib. Tərəflər arasında davamlı razılığın əldə edilməsinə kömək göstərmək niyyətində olduqlarını söyləyib. Blinken və Çavuşoğlu Rusiyanın gərginliyi artırması və Ukraynaya qarşı növbəti təcavüz təhlükəsinə qarşı koordinasiyanın davam etdirilməsi və NATO birliyinin gücləndirilməsinə də toxunublar.

**"Taxıl dəhlizi" müqaviləsi çox əhəmiyyətlidir**

Qeyd edək ki, Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsi altında iyulun 22-də Türkiyə, Rusiya, Ukrayna və BMT arasında "Ukrayna limanlarından taxıl və ərzaq məhsullarının təhlükəsiz daşınması təşəbbüsü sənədi" imzalanıb. Qara dənizdən taxıl məhsullarının təhlükəsiz daşınması üçün yaradılan Birgə Koordinasiya Mərkəzi iyulun 27-də İstanbulda Milli Müdafiə Universitetinin kampusunda fəaliyyətə başlayıb. Rusiya, Ukrayna, Türkiyə və Birləşmiş Millətlər Təşkilatının (BMT) nümayəndələrinin Birgə Koordinasiya Mərkəzində yoxlamalarını başa vuran "Razoni" adlı gəmi dünən günorta saatlarında İstanbuldan ayrılaraq Mərmərə dənizinə keçib.

**İsmayıl**

# Hikmət Mirzəyevin fotosu altında gizlənən xain dərhal tapılmalıdır

## Ələsgər Məmmədli: "Saxta profillərdən istifadə etmək sosial şəbəkənin də daxili qaydalarına ziddir"






**Millət vəkili Fazil Mustafa feysbuk səhifəsində sosial şəbəkə istifadəçilərinə müraciət edib. Millət vəkili Milli Qəhrəman, xüsusi təyinatlı qüvvələrin komandanı, general-leytenant Hikmət Mirzəyevin fotosunu profilinə yerləşdirərək Azərbaycan əleyhinə təbliğat aparan "Qərib Hasanov" adlı istifadəçi barədə xəbərdarlıq edib:**

"Dostlar, hamımız diqqətli olmalıyıq. Bu profilin sahibi Vətənimizin düşməni olan qumcuqlardan biridir. Profilinə iz azdırmaq üçün Milli Qəhrəmanımızın şəklini yerləşdirir. Hər yerdə də əleyhimizə rəylər yazır". Deputatın statusuna yazılan rəylərdə, Milli Qəhrəmanımızın fotosu arxasında gizlənən Vətən xaininin ifşası üçün profilin şikayət edilməsinin vacib olduğu qeyd edilir. Rəy yazanların əksəriyyəti bu fikirdədir ki, hər kəs bu profili şikayət etsə bağlanar. Onların qənimi ancaq dövlətin təhlükəsizlik qüvvələridir, bir-bir aparıb içəridə "başa salsınlar". Saxta akkaunt kimi təqdim edildiyi üçün profil şikayət edilə bilər. Profil şikayət olunsa bağlanacaq, açılması üçün şəxs əsl kimliyini feysbuka göstərməlidir, bunu etməyəcək və profil 1 ay sonra tam silinəcək, yox olacaq. Feysbuk qərəzli profilləri özü çox zaman hiss edir və bağlayır. Sadəcə, bu profilini kütləvi şəkildə şikayət etmək lazımdır. Nə qədər professional olsalar da belələrini deşifrə etmək asandır.

**Hüquqşünas Ələsgər Məmmədli "Şərq"ə açıqlamasında saxta profillərin feysbuk tərəfindən bağlanmasının mümkün olduğunu dedi:**

- Mənim adımla da saxta profil açılmışdı. Feysbuka müraciət etdim və həmin saxta profil bağlandı. Bu cür hallarda ya şəxsin özü müraciət etməlidir, ya da sosial şəbəkə istifadəçiləri həmin profilin saxta olduğunu təsdiq edən faktlar təqdim etməlidirlər. Profilin saxtalığı təsdiqləndiyi halda bağlanacaq. Saxta profillərdən istifadə etmək sosial şəbəkənin daxili qaydalarına ziddir. Sosial şəbəkədə hər hansı şəxsin təhqir edilməsi, böhtan atılması cinayət məsuliyyəti daşıyır. Azərbaycan Cinayət Məcəlləsinə bununla bağlı 148-1 maddə əlavə edilib. Hər hansı şəxsə qarşı təhqir, böhtan xarakterli məlumatlar, yaxud ictimai təhlükəsizliyi təhdid xarakterli məlumatlar yayılırsa, həmin maddə ilə cinayət işi qaldırıla bilər. Belə hallarda həm hüquqi, həm də funksional tədbir görülməsi mümkündür. Çünki bu cür davranış sosial şəbəkənin ümumi qaydalarına ziddir.

Ə.Məmmədli qeyd etdi ki, Azərbaycanın Milli Qəhrəmanı Hikmət Mirzəyevin fotosu altında dövlət əleyhinə, Azərbaycan maraqlarına zidd təbliğat aparılması yolverilməzdir və həmin şəxs müəyyənləşərək qanun qarşısında cavab verməlidir.

**Məlahət Rzayeva**

# Ermənistanın başının üzərini qara buludlar alıb

## ABŞ-ın İrəvana terror xəbərdarlığı iki məqsədə xidmət edir



**Ermənistanda terror həyəcanı yaşanıb. Ölkənin güc strukturlarına "Zvartnots" hava limanı, metroda və meriyaya partlayıcı qurğuların yerləşdirilməsi barədə məlumat daxil olub. Araşdırmalardan sonra heç bir partlayıcı qurğu aşkar edilməyib.**

Bundan sonra ABŞ-ın İrəvandakı səfirliyi Ermənistanda olan Amerika vətəndaşlarına xəbərdarlıq edib. Səfirlik vətəndaşların təhlükəsizlik məqsədilə müəyyən ərazilərdən uzaq durmağı məsləhət bilib: "Söhbət avqustun 2-də Ermənistan Fövqəladə Hallar Nazirliyinə bir neçə strateji obyektdə partlayıcı qurğuların olması ilə bağlı məlumatın daxil olmasından gedir. Bunlar "Zvartnots" hava limanı, İrəvan metrosunun stansiyaları, İrəvan meriyası və Ermənistan parlamentinin binalarıdır". Səfirlik ABŞ vətəndaşlarını yerli medianı izləməyə, izdihamlı yerlərdən qaçmağa, dostlar və digər amerikalı ailələrə məlum təhlükəsizlik tədbirləri barədə məlumat verməyə çağırıb.

> Birincisi, həqiqətən də Ermənistanda bu cür potensial teraktlar gözləniləndir. Paşinyanı devirmək üçün bu üsullardan istifadə edə bilərlər

**Politoloq Turab Rzayev "Şərq"ə bildirib ki, ABŞ-ın bənzər xəbərdarlıqları ilk dəfə gündəmə gəlmir. Analitik bildirib ki, Azərbaycan hərbi əməliyyatlara başlamazdan qabaq, eləcə də Rusiya-Ukrayna savaşından öncə ABŞ terror xəbərdarlıqları etmişdi:** "Amerika və Böyük Britaniyanın belə məqamlarda öz vətəndaşlarına çağırış etməsi göstərir ki, bu ölkələrin kəşfiyyatları bölgədəki prosesləri diqqətlə izləyirlər. Hansısa təhlükə sezdikdə, terror, yaxud silahlı insidentlərə qarşı öz insanlarını xəbərdar edirlər. Bu xəbərdarlıq iki məqsəd daşıya bilər. Birincisi, həqiqətən də Ermənistanda bu cür potensial teraktlar gözləniləndir. Heç bir halda hakimiyyəti təhvil vermək istəməyən Baş nazir Nikol Paşinyana keçmiş KQB metodlarından istifadə edə bilərlər. Əgər paytaxtda irimiqyaslı, ictimai təlatüm yaradacaq, böyük çaxnaşmaya səbəb olacaq partlayış tödərilərsə, bunu əlində əsas edənlər baş naziri istefaya səsləyəcəklər. Rusiya Prezidenti V.Putin 2000-ci illərdə məhz bu üsullarla hakimiyyətə gəlməyə çalışmışdı. Orta Asiya ölkələrində də belə metodlardan zaman-zaman istifadə olunub.

ABŞ səfirliyinin xəbərdarlığı qarşı tərəfə mesaj, ismarıc da ola bilər: "Amerika açıq şəkildə bildirir ki, Rusiya dəstəkli cinayətkar qruplaşmanın - "Qarabağ klanı" üzvlərinin törədə biləcəyi terror hadisələrindən xəbərdardır. Yəni ABŞ-ın xəbərdarlığı Rusiyanı və onların himayəsində olan qatillər dəstəsini öz əməllərindən çəkindirmək məqsədi də daşıya bilər. Ən azından vurğulayırlar ki, Paşinyanın bu üsulla devrilməsinə imkan verməyəcəklər".

**İsmayıl Qocayev**

# Azərbaycanın qəti tədbirləri qüvvədədir

## İrəvanın ikiüzlü, riyakar mövqeyi ilə uzağa getmək olmaz

**İsmayıl Qocayev**

**Ermənistan Baş naziri Nikol Paşinyan hökumətin iclasında Azərbaycana yönəlik ittihamlar səsləndirib. Paşinyan İrəvanın 10 noyabr 2020-ci il bəyanatının şərtlərinə əməl etdiyini iddia edib. Baş nazirə görə, rəsmi Bakı sazişdən irəli gələn öhdəliklərdən boyun qaçırır:**

"Azərbaycan Ermənistanın öhdəlik götürməsindən danışır. Bəli, biz öhdəlik götürdük və hər şeyi yerinə yetirdik". O iddia edib ki, Azərbaycan da guya, öhdəlik götürüb. Paşinyan Azərbaycanın "bu öhdəliklərə" əməl etməsini istəyib: - "Dağlıq Qarabağ"ın (red: separatçı rejimi) mövcudluğunu tanımaq, Qarabağda "təmas xəttinin" mövcudluğuna və Laçın dəhlizinin mövcudluğuna hörmətlə yanaşmaq. Qeyd edək ki, 10 noyabr kapitulyasiyasından sonra bu, Ermənistan rəhbərliyinin bütün diplomatik sərhədləri aşmasının və öhdəlikdən qaçmaq üçün növbəti həyasızlığının ən üst səviyyəsidir. Azərbaycan bəyanatda heç bir öhdəlik götürməyib. Sazişin mətnində bircə yerdə də olsun, "Dağlıq Qarabağın gələcək statusu" ilə bağlı söz belə yoxdur. "Təmas xətti" ifadəsi isə Ermənistan ordusunun rus sülhməramlıların gəldiyi vaxta qədər dayandıqları mövqelərə görə işlədilib. Rusiya sülhməramlı kontingentinin Qarabağa yerləşdirilməsi ilə Ermənistan hərbi birlikləri Azərbaycan ərazisindən çıxarılmalı idi. Bununla da "təmas xətti" anlayışı tamamilə ləğv olunacaqdı. Qarabağın bir hissəsinə yerləşdirilən rus sülhməramlıları isə orda məskunlaşdırılan erməni icmasının təhlükəsizliyini müəyyən müddətə qədər təmin edəcəkdilər. "Dağlıq Qarabağ"ın mövcudluğunu tanımağı" dilə gətirmək Paşinyanın ciddi səhvi olmaqla bərabər, 10 noyabr bəyanatından imtina etməsi və müharibə səbəbidir. 10 noyabr bəyanatının tərəfi Ermənistandır, hər hansı separatçı-terrorçu ünsür deyil. Bəyanatın altında Ermənistan baş nazirinin imzası var. Lakin baş nazirin açıqlamaları onun öz imzasına hörmət etmədiyi, yenidən baş qaldırdığı, yenidən münaqişə yaratmaq istəməsini göstərir.



**Vətəndaş Həmrəyliyi Partiyasının sədir müavini Samir Əsədli "Şərq"ə deyib ki, Ermənistan hər yola əl atır ki, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını uzatsın. Partiya rəsmisinin sözlərinə görə, xüsusilə son aylar müşahidə olunanlar belə bir qənaətə gəlməyə əsas yaradır:** "Paşinyan əvvəl deyirdi ki, Qarabağın statusu Azərbaycan Konstitusiyası ilə tənzimlənməlidir, indi başqa hava çalır. Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə gəlincə, bunu rus sülhməramlılarından əvvəl Azərbaycan öz üzərinə götürüb. Bir şərtlə ki, onlar Azərbaycan vətəndaşlığını qəbul etsinlər və ölkəmizin qanunlarına tabe olsunlar. Silahlı birləşmələrə gəldikdə isə onları zərərsizləşdirmək 10 noyabr bəyannaməsinə əsasən elə rus sülhməramlılarının birbaşa vəzifə borcudur. Son əməliyyatlarda da ordumuzun zərbə hədəfi məhz bu qanunsuz silahlı birlikər olub. Azərbaycan Ermənistanı blokadadan çıxarmaq üçün kommunikasiyaların açılmasını, sülh müqaviləsinin imzalanmasını təklif edir. Azərbaycan istənilən danışıqlara gedir. Azərbaycan istəyir ki, tezliklə sərhədlər delimitasiya olunsun, kommunikasiyalar açılsın və sülh müqaviləsi imzalansın. Ermənistan bunu istəyirsə, ortaya siyasi iradə qoymalıdır. Paşinyanın ikiüzlü, riyakar mövqeyi ilə uzağa getmək olmaz. Ermənistanda hazırkı iqtidara real rəqib yoxdur. Odur ki, hər şey Paşinyanın iradəsindən asılıdır. Əgər o istəsə sənədləri imzalaya bilər. Bunu Avropada da bilirlər. Hər iki senari bizə sərf edir. Baş nazirin təqdim olunan sənədlərə qol çəkməsi, əlbəttə, maraqlarımıza uyğundur. Bunun əksi də bizim üçün üstünlükdür. Çünki Ermənistanın destruktiv mövqeyi bir daha ifşa olunacaq. Bu, şübhəsiz, bizim diplomatik uğurumuz kimi qiymətləndirilməlidir. Son əməliyyatlar təsdiqlədi ki, belə destruktiv mövqeyə qarşı Azərbaycanın qəti tədbirləri qüvvədədir".

# Paşinyan baş verənlərdə Rusiyanı günahlandırır

## Fuad Abbasov: "Qarabağ münaqişəsi ermənilərdən daha çox rusların nəzarətindədir"

**Avqustun 3-də erməni silahlı dəstələri rus sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozub. Erməni terrorçuların təxribatı nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub.**



Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürülüb.

Qarabağda vəziyyətin gərginləşdiyi bir vaxtda Rusiya dövlət başçısının mətbuat katibi Dmitri Peskov yeni məlumat yayıb. Bildirilib ki, Rusiya Prezidenti Vladimir Putin bu gün Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvlərinin təcili iclasını çağırıb. Toplantıda üçtərəfli sazişin bütün müddəalarının təcili həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

**Baş verənləri "Şərq"ə dəyərləndirən jurnalist, siyasi şərhçi Fuad Abbasovun sözlərinə görə, Ermənistan ictimaiyyəti Baş nazir Nikol Paşinyandan Qarabağda baş verənlərin hesabatını istəyir:** "Yəni Paşinyandan "Demişdin ki, hər şey yaxşı olacaq, narahatlığa əsas yoxdur, amma övladlarımız ölür, əsir düşür" və s. istiqamətdə hesabat tələb edirlər.

Paşinyan da hesabat verə bilmədiyi üçün Rusiyanı günahlandırır. İstər Təhlükəsizlik Şurası, istər KTMT toplansın, Azərbaycan öz torpaqlarında əks hücum əməliyyatı həyata keçirir.

Beynəlxalq hüquq baxımından tamamilə haqlıyıq. 10 noyabr 2020-ci il sazişinə əsasən, haqlı olduğu bir daha təsdiqlənir. Ermənistan rəhbəri cavabdehliyi üzərindən atır.

Qarabağ münaqişəsi ermənilərdən daha çox rusların nəzarətindədir. Əsgərimiz Anar Kazımovun şəhid olması rus hərbi birliklərinin sülhü təmin etməməsinin nəticəsində yaşanıb.

Ruslar da bunu yaxşı başa düşür. Azərbaycan tərəfində əsgərin qətlə yetirilməsinə göz yumur, münaqişəni yenidən alovlandırmağa çalışırlar".

**Aygün Tahir**

# NATO-nun iki tapşırığı var

## Stoltenberq: Rusiya qalib gəlsə, növbəti hədəfi digər qonşu ölkələr ola bilər



**Rusiya Prezidenti Vladimir Putinin Ukraynadakı ambisiyalarında uğur qazanmaması bizim marağımızdadır.**

APA-nın xəbər verir ki, bunu NATO Baş katibi Yens Stoltenberq Norveçin Utoya adasında gənclər düşərgəsində deyib.

"Putinin istədiyini hərbi güc tətbiq edərək əldə etdiyi bir dünya bizim üçün çox təhlükəli bir dünyadır. Əgər Rusiya bu müharibədə qalib gəlsə, o, (Vladimir Putin) təsdiqləyəcək ki, zorakılıq işə yarayır. O zaman digər qonşu ölkələr növbəti (hədəf) ola bilər", - Stoltenberq bildirib.

NATO Baş katibi qeyd edib ki, bu münaqişədə NATO-nun iki tapşırığı var: Ukraynanın dəstəklənməsi və münaqişənin NATO və Rusiya arasında tammiqyaslı müharibəyə çevrilməsinin qarşısının alınması.

O əlavə edib ki, NATO Ukraynanın beynəlxalq hüquqla müəyyən olunmuş özünümüdafiə hüququnu dəstəkləyir və Rusiyanın 2014-cü ildə Krımı ilhaq etdiyi tarixdən etibarən NATO, həmçinin üzv ölkələr ABŞ, Kanada, Böyük Britaniya və Türkiyə Ukraynaya yardım edib.

# 25 manata heç İngiltərədə çay yoxdur

## Bakı bulvarı artıq bizə deyil, ərəbə, ingilisə, fransıza xidmət edir

**AĞ Partiya sədri Tural Abbaslı "Prime TV"-də yayımlanan "Qırmızı masa" verilişində Dənizkənarı Bulvardakı kafelərdə insanlara təqdim olunan çayın qiymətinin baha olması ilə bağlı fikirlər səsləndirib: "Mənim heç nəsil-kököm bulvarda 25 manata çay içməyib. 25 manata da çay olar?**

Bu Xəzər kimindir? Bu Bakı kimindir? Biz öz Bakımızda qonaq kimiyik. Bulvarın kafeləri ərəbə, fransıza, ingilisə işləyir. 25 manata heç, bəlkə də, İngiltərədə çay yoxdur. Biz bulvarda çay içə bilmərik?".



**"Şərq" AĞ Partiya sədrinin fikirlərini əsas tutaraq Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi ilə əlaqə saxlayıb.** Qurumun mətbuat xidmətinin rəhbəri Könül İmamverdiyeva məsələyə münasibət bildirərək qeyd edib ki, həmin kafelər fiziki şəxslər tərəfindən idarə olunur. Bu səbəbdən Dənizkənarı Bulvar İdarəsi onların işinə heç bir halda müdaxilə edə bilməz: "Qiymətləri tənzimləmək onların öz səlahiyyətlərindədir. O ki qaldı sözügedən ərazidə ucuz qiymətə çayın olmamasına, bu, həqiqəti əks etdirmir. Bulvar ərazisində elə kafelər var ki, orda sahibkarlar qiymətləri bütün insanlar üçün münasib ediblər. Biz sözügedən kafelərə qiymətlərlə bağlı ancaq tövsiyə edə bilərik".

**Məsələnin iqtisadi tərəfindən danışan iqtisadçı-ekspert Rəşad Həsənov isə bildirib ki, bazarda sadəcə olaraq inhisar, icazə ilə daxil olma var. Böyük ehtimalla qiymətlərin bahalığı məhz bu inhisarçılıqla bağlıdır:**

"Sərbəstlik olsa, hər kəs burda rahat şəkildə öz istədiyi fəaliyyətlə məşğul olsa, sözügedən bahalıq aradan qalxar. Biznesmen düşünür, mövcud vəziyyətə uyğun qərarlar qəbul edir. Yaranmış vəziyyəti biznesin üzərinə atmaq olmaz. Burda tənzimləyici funksiyanı dövlət yerinə yetirir. Dövlət çalışmalıdır ki, təklif çoxalsın. Çünki təklif artdıqda bazarda qiymətlər də optimal səviyyəyə düşür. Bunun üçün şərait yaradılmalıdır".

**Günəş Mərd**



# "Qisas"dan sonra Paşinyan oyun qurur

## İrəvan Qarabağda Bakı və Moskvanı üz-üzə qoymağa çalışır

İsmayıl Qocayev

**"Ermənistan Qarabağda qalan silahlı dəstələrini separatçıların qondarma "müdafiə ordusu"nun tərkibinə daxil edib". Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, sentyabr ayına qədər sonuncu müddətli hərbi qulluqçular tərxis olunsa da, zabit və müqavilələri erməni hərbçiləri Qarabağda qalacaq:**

"Paşinyan Bakıya qarşı "Dağlıq Qarabağ" kartını oynayır. Erməni baş nazir deyir ki, Azərbaycan və Rusiya Qarabağda "təmas xəttinin" təhlükəsizliyinə zəmanət verərsə, separatçı-terrorçuların "postlar" qurmasına ehtiyac qalmayacaq. İddia edir ki, separatçı-terrorçuların "mövqe-post" qurmasına ehtiyac Bakının "sülhməramlıların mandatını" təsdiqləməkdən imtinasına görə yaranıb. Əlavə edir ki, "Sülhməramlı missiyasının "tam hüquqlu fəaliyyəti" üçün Ermənistan və Rusiyanın imzalarının kifayət etdiyini hesab edirik, əgər belə deyilsə, o zaman "mandat"ın beynəlxalq səviyyədə tanınması və ya onun genişləndirilməsi prosesinə başlamaq lazımdır". Paşinyan bununla bir neçə istiqamətdə oyun qurur. Birincisi, Azərbaycanın Qarabağda "təmas xətti"ni, həm də de-fakto separatçı-terrorçuların mövcudluğunu tanımasını istəyir. "Status" iddiasını "etnik ermənilərin təhlükəsizlik və hüquqlarının qorunması" ilə əvəz edən İrəvan "təmas xətti" gedişi ilə bu mövqeyini gücləndirməyə çalışır. İkincisi, Bakının bunu etməyəcəyini bilir, lakin bu məsələ üzərindən rus sülhməramlılarının "mandatı"nı gündəmə gətirməklə Moskvanın əlinə oynayır, onun dəstəyini qazanmağa çalışır. Üçüncüsü, "sülhməramlı missiyasının genişləndirilməsi prosesi" ilə beynəlxalq ictimaiyyəti - Qərbi prosesə qoşmaq imkanını gündəmə gətirir. Bununla həm Moskvaya "siz zəmanət verməsəniz, Qərbə üz tutarıq" mesajı verir, həm də Qərb ölkələrinə "qapı göstərməklə" Qarabağ məsələsində dəstəyi genişləndirmək gedişi edir".



Baş nazirin məsuliyyəti Rusiya sülhməramlılarının üzərinə qoyması da buna hesablanıb

**A.Nərimanlıya görə, Ermənistan Laçın dəhlizinin alternativ marşruta köçürülməsinə könüllü razı olmayacaq:** "Bakının "Qisas" əməliyyatından sonra dəhlizin yeni marşruta köçürülməsinin sentyabr ayına qədər həyata keçiriləcəyinə dair razılaşmanın olduğu məlumatları var. Erməni baş nazirin sözləri isə İrəvanın buna qarşı olduğunu təsdiqləyir. Paşinyan Zəngəzurdan dəhliz verməyəcəyini bir daha elan etdi. Erməni baş nazir bildirir ki, "Naxçıvanla Azərbaycanın qərb rayonları arasında rabitəni təmin etməyə hazırdırlar, Ermənistan qanunvericiliyi çərçivəsində sərhədi keçib Naxçıvana gedə bilərlər". Bununla 10 noyabr razılaşmasının 9-cü bəndinə uyğun olaraq Naxçıvana "maneəsiz keçid" vermək niyyətində olmadıqlarını deyir. Nikolun fikirlərindən çıxan ümumi nəticə və hədəflər belə görünür: - İrəvan Qarabağdakı "etnik ermənilərlə" bağlı üzərinə düşəni edir, lakin məsələnin əsas ünvanı Rusiyadır. Baş verənlərə məsuliyyəti Rusiya sülhməramlılarının üzərinə qoyması da buna hesablanıb. İrəvanın rolunu arxa plana keçirməklə, Qarabağda Bakı və Moskvanı üz-üzə qoymağa çalışır. Həm də Bakıya açıq mesaj verir ki, güc tətbiqi olmasa, razılaşmalar yerinə yetirilməyəcək. Prezident İlham Əliyev "Qisas" əməliyyatından öncə sonuncu çıxışı zamanı elan etmişdi ki, erməni qoşunlar Azərbaycan ərazisindən çıxmalıdır. Həmçinin, Naxçıvana "maneəsiz keçid" təmin edilməlidir. Əgər razılaşmalara əməl edilməsə, Bakının cavab addımları olacaq. "Qisas" əməliyyatı bu cavablardan biri hesab edilə bilər. Əsas hədəflərindən biri də İrəvanı razılaşmalara məcbur etməkdir. Hərçənd, erməni baş nazir bunun yetərli olmadığını deyir".

# İrəvan çarəsizdir

## Baş nazir Rusiyanı hədələyir



"O, deyir ki, Qarabağda yerləşən rusiyalı sülhməramlıların mandatı müəyyənləşməsə beynəlxalq təşkilatlara müraciət edəcək"

**Regionda baş verən olaylarla bağlı hökumətin təcili iclasını çağıran Ermənistanın Baş naziri Nikol Paşinyan Qarabağ ətrafında vəziyyətin son dərəcə mürəkkəb olduğunu deyib. Baş nazir 3 avqust tarixində baş vermiş gərgin döyüşlərdə 2 erməni hərbçinin öldüyünü, 19 hərbçinin isə yaralandığını bildirib.**

Onun sözlərinə görə, Qarabağda Ermənistandan gələn hərbçilər xidmət etmirlər: "Azərbaycan Qarabağın "müdafiə ordusu"ndan, onun niyə təmas xətti boyunca yerləşdirilməsindən danışır. Əgər Rusiya sülhməramlı kontingenti və Azərbaycanın təmas xəttinin toxunulmazlığına zəmanət verirsə, məncə, "müdafiə ordusu" döyüş növbətçiliyi aparmağa məcbur edilməyəcək. Mən də rəsmi şəkildə bildirirəm ki, Qarabağda Ermənistandan olan hərbçi yoxdur. Qarabağdakı son olaylar Rusiya sülhməramlılarının fəaliyyəti ilə bağlı bir sıra suallar doğurur". Baş nazir həmçinin bəyan edib ki, Ermənistan Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında əlaqəni təmin etməyə hazırdır: "İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatına əsasən regionda sülhün bərqərar olmasının tərəfdarıdır."

**Paşinyanın açıqlamalarını şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, erməni baş nazir Qarabağda Ermənistan hərbçisinin olmadığını söyləyir. Halbuki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bir neçə gün əvvəl Paşinyanın təlimatıyla bəyan etmişdi ki, "sentyabra qədər hərbçilərimizi Qarabağdan çıxaracağıq". Deməli, başlarına zərbə dəydikcə daha tez tərpənirlər:** "Nikol Paşinyan çarəsizdir. Açıqlamasında Rusiyanı hədələyən Paşinyan deyir ki, Qarabağda yerləşən rusiyalı sülhməramlıların mandatı müəyyənləşməsə beynəlxalq təşkilatlara müraciət edəcək. Beynəlxalq təşkilatlar Azərbaycanın istəyi olmadan nə edə bilərlər ki? Müxtəlif problemlər məngənəsində sürünən BMT Qarabağa sülhməramlı göndərmək və ya rusiyalı sülhməramlıları əvəz etmək durumunda deyil. Paşinyan erməni cəmiyyətinə mesaj verir ki, rusiyalı hərbçilər Azərbaycan Ordusunun Qarabağda mövqelərinin möhkəmlənməsinə mane olmurlar. Biz rusiyalı hərbçilərin "mandat" mövzusunu ona görə müzakirə etmirik ki, onların bölgədə varlığı müvəqqətidir, 3 il yarımdan sonra Qarabağı tərk etməli olacaqlar. Əsas hədəfimiz budur. Ermənilər isə qorxularından bu mövzu barədə danışmaq istəmirlər. Bir-birilərindən açıq şəkildə soruşmurlar ki, "rusiyalı hərbçilər Qarabağı tərk etdikdən sonra nə edəcəyik?"."

**Analitik Paşinyanın Laçın dəhlizi ilə bağlı sözlərinə də münasibətini bildirib:** "Laçın yolu yalnız dəhliz deyil, Ermənistandan Qarabağa uzanan qaz boru xətti və elektrik xətləri də buradan keçir. Başqa sözlə, Azərbaycan Ordusu Laçın dəhlizini nəzarətə götürməklə həm də vaxtilə qanunsuz çəkilən kommunikasiya xətlərini nəzarətə götürəcək. İrəvan məhz buna görə Laçına alternativ yola keçidi uzatmaq istəyir. Ancaq qısa müddətdə alternativ yoldan Qarabağdakı ermənilərə qaz boru xətti çəkə bilməyəcəklər. Belə istəkləri olsa belə bu dəfə biz buna imkan verməyəcəyik. Bunu İrəvan da anlamamış deyil. Əslində Ermənistanın Baş naziri Nikol Paşinyan alternativ yol reallığını qəbul edib. Ona görə də açıqlama verib ki, Ermənistan tərəfdən yolun tikintisini payıza qədər bitirəcəklər. Halbuki, bir neçə gün əvvəl bəyan etmişdilər ki, yolun tikintisinə sentyabr ayından başlayacaqlar".

İsmayıl Qocayev



# Kim necə istəyir geyinə bilər

## "Bəlkə ölkəmiz şəriət qaydaları ilə idarə olunur, xəbərimiz yoxdur?"



"Əgər kişilərə şortik geyinməyə qadağa qoyuruqsa, qadınlara da bu qadağa qoyulmalıdır və yaxud hər ikisinə bu imkanı yaratmaq lazımdır"




Şeymən Bayramova

**Bakının Lökbatan qəsəbəsində yerləşən "Meyvəli bazarı"nın girişində maraqlı elan yerləşdirilib. "Bəylər üçün şortiklə bazara daxil olmaq qadağandır" yazısını özündə əks etdirən foto sosial mediada geniş müzakirələrə səbəb olub və ictimaiyyət tərəfindən tənqidlə qarşılanıb.**

Kişilərin şort geyinməsi son illər ölkəmizdə xeyli adiləşsə də bu mövzu barədə müzakirələr nədənsə səngimək bilmir. Xatırladaq ki, bir müddət əvvəl Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) qeydiyyat və imtahan binası ilə bağlı da analoji hal yaranmışdı. Sürücülük vəsiqəsi imtahanı üçün ödənişi edib imtahan zalına keçmək üçün binaya daxil olanda əynindəki şort səbəbilə içəri buraxılmamışdı.

**"Meyvəli bazarı"nın direktoru Anar Novruzov məsələyə aydınlıq gətirib. O, müzakirələrə yol açan elanın doğru olduğunu təsdiqləyib. A.Novruz bildirib ki, bazar ictimai yer olduğundan belə geyimlə bura gəlmək yolverilməzdir:**

"Bəzən çimərlik paltarında bazara gəlirlər. Belə hal yolverilməzdir. Azərbaycanlıyıq, hamımızın anası-bacısı gəlir bazara. Kiminsə elə geyinməsi yaxşı hal deyil. Dənizdən alt paltarında çıxıb, bura gələnlərin qarşısını almaq üçün bu bildirişi asmışıq. Elə də ciddi məsələ deyil".

Məsələ ilə bağlı müzakirələrə qoşulan ekspertlər kişilərin şort geyməsinə mənfi münasibətin yazılmamış qayda-qanunlarla, mental münasibətlə bağlı olduğunu düşünür. Şortda gəzən kişilərə münasibəti psixoloji amillərlə izah edən mütəxəssislərə görə, Azərbaycanda kişilər xanımlarının, əziz qadınlarının yad kişinin çılpaq ayaqlarını görməsini istəmir. Onlar bu məsələyə qısqanc yanaşırlar. Bu səbəbdən kişilərin şortik geyinməsi qadınların bu geyimdən istifadəsi fonunda daha qabarıq görünür. Əslində isə şortika ciddi müqavimət göstərən insanların ölkədən kənara çıxan kimi özlərinin də bu sayaq geyimə üstünlük verdiklərini görürük.

**Milli Məclisin İnsan hüquqları komitəsinin deputatı Tahir Kərimlinin sözlərinə görə, Azərbaycan adətləri hüququn əsas mənbələrindən biridir:** "Məhz adətlərə istinad edərək, digər ölkələrdə də - Çində, Yaponiyada, Avropada, Amerikada, Orta Asiyada qanunlar qəbul olunur. O cümlədən, Azərbaycanda da bu cür adətlərə söykənərək, qadın və kişilərə fərqli münasibətlər göstərilir. Bu, sovetdənqalma dünyəviliyin bir adətinə çevrilib, yəni qadın istədiyi kimi geyinə bilər, ona heç kim irad bildirə bilməz. Amma kişiyə gələndə deyilir, "adətlərə zidd geyinirsən".

Ona görə bu məsələnin qanuni aspektləri yoxdur. Hər bir xidmət müəssisəsinin geyim forması ola bilər, deyilə bilər ki, qadınlar mini geyinməsin, kişilər şortik geyinməsin və s. "Kişilər şortik geyinsin-geyinməsin" artıq illərdir müzakirə olunur. Yadımdadır ki, hələ 15 il əvvəl məhz bu mövzu ilə bağlı müsahibə vermişdim. O vaxt demişdim ki, qadınlar maykada gəzə bilər, amma kişilər gəzəndə birtəhər baxırlar. Niyə? İki səhifəlik müsahibəmdə bu məsələləri geniş şərh etmişdim. Amma üstündən 15 il keçib, hələ də eyni şeydən danışırıq. Ümumiyyətlə, qafqazlı olmağımızdan, türk olmağımızdan, milli mentalitetimizdən, dinimizdən asılı olaraq, istər qadın, istər kişi abırlı geyinməlidir. Bu, illərdir formalaşan ənənədir. Nə çadra geyinmək lazımdır, nə də çox açıq".

**Deputat deyib ki, eyni situasiyada qadın və kişinin geyimində fərq qoymaq qanunaziddir:** "Azərbaycanda çox nadir yerlərdə daxili geyim normaları tətbiq edilir. Sözügedən yerdə isə geyimlə bağlı qanuni yanaşma yoxdur. Bu, bazar rəhbərinin şəxsi mülahizəsindən asılıdır, nədən xoşu gəlir, nədən xoşu gəlmir. Çünki bizdə geyimlə bağlı konkret qaydalar yoxdur. Şortik geyinmək heç inzibati pozuntu belə deyil, nəinki qanun pozuntusu. Bu situasiyada qadın və kişi fərqi qoyularaq, şortik geyinən bəyin bazara daxil olmasının qarşısının alınmasının özü qanun pozuntusudur. Burada kişi və qadına eyni cür münasibət göstərilsəydi, yenə də başa düşmək olardı. Bu, ədalətli və düzgün yanaşma deyil, nə qanuna sığır, nə mentalitetə".

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, "kitabxana. net-Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, yazıçı- kulturoloq Aydın Xan Əbilovun "Şərq"ə açıqlamasına görə, bir çox sahələrdə olduğu kimi xidmət sahələrində də kişilərin hüquqları kobud şəkildə pozulur. Sözügedən elan bəylərimizin hüquqlarının pozulması ilə bağlı ilk fakt deyil. Dəfələrlə bu kimi haqsız yanaşmaların şahidi oluruq. Əgər kişilərə şortik geyinməyə qadağa qoyuruqsa, qadınlara da bu qadağa qoyulmalıdır və yaxud hər ikisinə bu imkanı yaratmaq lazımdır:** "Toylarda, restoranlarda, çimərliklərdə qadınlarımız istədikləri geyimi geyinə, liberal formada qısa ətək, şortiklə gəzə bilirlər. Bəzi xanımlarımız küçələrdə, parklarda elə geyim geyinir ki, adam utandığından küçəyə çıxmağa utanır. Sanki hamamda, çimərlikdədilər. Onlara "gözün üstdə qaşın var" deyən yoxdur. Sözün açığı, deməyə ehtiyac da yoxdur. Hər kəsin öz həyat tərzi, geyim zövqü var. Amma söhbət kişilərdən gedəndə niyə gender bərabərliyi yada düşmür? Qadınlara şortik geyinmək ayıb deyilsə, oğlanlara niyə olmaz. Bu necə düşüncə tərzidir? Gah bazarda, gah universitetdə və digər xidmət sahələrində bəylərə şort qadağası qoyulur, qapı girişlərinə elan vururlar. Bu yazılar birbaşa insan hüquqlarına ziddir. Qanunla da kiminsə şortik geyindiyinə görə içəri buraxılmaması doğru deyil. Bütün məzhəb inqilablarının kökü bu cür ayrıseçkiliyə dayanır. Fundamentalizmi cəmiyyətlərin beyninə məhz geyim tərzi, açıq-saçıq paltarlara qadağalarla yeridirlər. Ölkəmizin də bu cür dini-məzhəb oyunlarına qoşulması ürəkaçan deyil. Hansısa məclisə, ictimai yerə daxil olan insanın mənəviyyatı, intellekti heç kimi maraqlandırmır. Hamının gözü onun şort, yoxsa klassik şalvar geyinməsinə yönəlir. Onsuz da əxlaqı olmayan, əxlaqsız insan şortikdə, çadrada da öz əməllərindən əl çəkməyəcək. Çarşabla girdiyi məclisdə oğurluq və digər mənəviyyatdan kənar addımlar atan insanlara azmı rast gəlirik. Sosial şəbəkələr bu cür videolarla doludur".

*Azərbaycanın sivil və Avropa dəyərlərinə inteqrasiya edən bir ölkə olduğunu vurğulayan kulturoloq deyib ki, insanlarımız istənilən məclisə istədikləri formanı geyinə bilərlər, lakin mental dəyərlərimizə də hörmət olunmalıdır:* "Məsələn, yas məclisinə, dəfnə şortla getmək etikadan kənar bir hal olar və bizim milli dəyərlərimizə ziddir. Eləcə də hansısa xanımın toy-nişana cins şalvarda getməsi estetik baxımdan xoş qarşılanmır. Yoxsa ki, hansısa bazar sahibinin oradan alver edən insanlara nəyisə qadağa qoyması, onu geyinmə, bunu geyin" deməsi birbaşa qanunsuzluqdur. Bu adam milli-mənəvi dəyərlərimizə zidd olan, yaxud da başqalarının hüquqlarını pozacaq bir hərəkət etməyib, oğurluq, dələduzluq kimi cinayət xarakterli əməl törətməyibsə, kiməsə qadağa qoymaq onu heç bir alverçinin həddi deyil. Bəlkə ölkəmiz şəriət qaydaları ilə idarə olunur, bizim xəbərimiz yoxdur?.

Həmin bazarın sahibi cəzalandırılmalıdır ki, hansısa ölkələrin, dini məzhəbçilərin daxilimizdə yerləşdirdikləri digər agentləri dərs götürsün".

**Kulturoloq qeyd edib ki, geyim əxlaq və mənəviyyatın göstəricisi ola bilməz:** "Ona qalsa dünyanın ən tanınmış insanları, hətta rəhbər şəxsləri müxtəlif tərzdə paltar geyinir, şort-mayka ilə şəkil çəkdirib paylaşırlar. İndi onlara deyək ki, siz əxlaqsızsınız? Ən mühafizəkar ölkələrdən biri kimi tanınan Yaponiyada dövlət qurumlarında və biznes strukturlarında çalışanlar üçün konkret geyim formaları vardı. Ofislərdə kostyum, qalstuk tələbi mütləq idi. Amma indi qlobal istiləşmə səbəbindən yay aylarında qalstukdan imtina edib qısa qollu köynəklərə keçiblər. Hətta bəzi qurumlarda şortla belə getmələrinə icazə verilir.

Azərbaycanda beynəlxalq dəyərlərin inkişafında maraqlı olmalıyıq. Bizi 6-7-ci əsrlərə qaytarmaq, ərəb çöllərində yaşayan toplumların yaşam tərzini ölkəmizə gətirmək istəyən insanların təsiri altına düşməməliyik".

# "Feyk" profillər suyu bulandırmağa çalışır"

“Onlar Azərbaycanın daxilində qarışıqlıq, panika yaratmaq niyyəti güdür”



**Müzəffər Azərbaycan Ordusu hər zaman ərazilərimizin bütövlüyü, qələbəmiz naminə torpaq uğrunda savaşmağa hazırdır. 44 günlük Vətən müharibəsindən alnı açıq, üzü ağ çıxmışıq. 10 Noyabr Bəyannaməsinin şərtlərinə məhəl qoymayan Ermənistan yenə də dinc durmur, zaman-zaman bir sıra təxribatlara əl atır və hələ də davam etməkdədir. Xalqımızın qəhrəman, məğrur oğulları isə daim mənfur düşməni adekvat cavablarla susdurur. Ötən gün təəssüf ki, terrorçuların mövqelərimizi atəşə tutması nəticəsində bir əsgərimiz şəhidlik zirvəsinə ucaldı.**

Daha sonra Azərbaycan Ordusu "Qisas" əməliyyatı keçirib. Ermənilərin canlı qüvvəsi və texnikası məhv edilib. Lakin daha bir təəssüf doğuran məqam isə belə həssas dönəmdə bəzi media subyektlərinin, sosial şəbəkə istifadəçilərinin paylaşdığı dezinformasiyalardır. Kövrək bir zamanda uşaqdan böyüyə hər kəs narahatlıq içərisində televiziya, radio, qəzet və saytları izləyir. Yanlış bir məlumatın ictimai platformaya yansıması insanlar arasında çaşqınlığa səbəb olur. Hətta bəzən öz reytinqlərini yüksəltmək, baxış, oxucu sayını artırmaq naminə köhnə foto və videoların əsasında "yeni xəbərlər"in təqdim edilməsinə yol verilir. Ordunun fəaliyyəti barədə smartfonlarla çəkilən təkcə bir fotonun yayılması düşmən tərəfin koordinatlarımızı bilməsinə, ərazimizlə bağlı kəşfiyyat aparmasına əsas yaradır. Bu da birbaşa vətən keşiyində dayanan mərd əsgərlərimizin həyatının təhlükəyə atılması ilə nəticələnə bilər. Arxa cəbhədəki insanlar informasiya savaşında qalib gələ bilmək üçün ordu barədə hər eşitdikləri feyk xəbəri paylaşmamalıdırlar. Çünki ön cəbhədə nə baş verdiyini, hansı müsbət və ya mənfi hadisələrin yaşandığını evimizdən oturub, deyə bilmərik. Ona görə də hər bir vətəndaş vəzifəsindən, tutduğu mövqedən asılı olmayaraq, məsələyə son dərəcə diqqətli yanaşmalı, yalnız rəsmi qurumların yaydığı informasiyalara inanmalı, istinad etməlidir.

## Rəşad Məcid: "Hər bir media nümayəndəsi, sosial şəbəkə istifadəçisi ciddi məsuliyyət hissi daşımalıdır"

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid "Şərq"ə bildirib ki, Müdafiə Nazirliyi, rəsmi qurumlar, eyni zamanda Azərbaycan Mətbuat Şurası dəfələrlə həm media nümayəndələrinə, həm sosial şəbəkə istifadəçilərinə müraciətlər ünvanlayaraq, hərbi əməliyyatlar zamanı dövlətimizin təhlükəsizliyinə xələl gətirə biləcək yazılara və statuslara yol verilməməsi barədə çağırış edib:** "Xüsusən də son günlərdə baş verən hadisələr zamanı görürük ki, müraciətlərə əməl edən, ciddi media savadlılığı qaydasında olan sosial şəbəkə istifadəçiləri var. Amma təəssüf ki, bəziləri yenə də emosionallıqdan, bilərəkdən və ya bilməyərəkdən bu kimi hallara şərait yaradırlar. Öz statuslarımda da, Mətbuat Şurası İdarə Heyətinin üzvü kimi də vaxtı gələndə münasibətimi açıqlayıram. Hazırda elə məqamdır ki, hərbi əməliyyatlar getdiyi vaxtda rəsmi qurumların, MN-in informasiyasını gözləməliyik. Tələskənlik görülən işə, dövlətimizə zərər vura bilər. Hər bir media nümayəndəsi, sosial şəbəkə istifadəçisi ciddi məsuliyyət hissi daşımalıdır. Eyni zamanda sosial platformalar ölkəmizə düşmən olan qüvvələrin qəsdən yaydığı "fake" informasiyalarla doludur. Həmçinin Azərbaycanın daxilində qarışıqlıq, panika yaratmaq niyyəti güdülür. Sözügedən məsələlərdə hədsiz soyuqqanlı və təmkinli davranmaq lazımdır. Son hadisələrdə bir az ləng olsa da, MN-in yaydığı videolar və informasiyalarla kifayətlənmək yetərlidir. Bəziləri özlərini ağıllı göstərərək, lazımsız şərhlər verirlər. Ehtiyatlı olmaq önəmlidir".

**R.Məcidin qənaətincə, məlum problemlə bağlı dövlət qurumlarının müraciətləri ilə yanaşı Mətbuat Şurasının fəallığına ehtiyac var:** "Şuranın sədri, üzvləri tez-tez məsələ barədə fikirlərini bildirirlər. Lakin əfsuslar olsun ki, yenə də mövcud vəziyyət tam aradan qalxacaq şəkildə qaydasına düşmür. Bunu gözləmək də sadəlövhlükdür. Çünki sosial şəbəkə seqmentində məlum olmayan "feyk" profillər görürük. Bizə yad və düşmən olan qüvvələrin nəzarətindəki hesablar qəsdən suyu bulandırmağa, Azərbaycan cəmiyyətində xof yaratmağa çalışırlar. Ayıq media nümayəndələri, sosial şəbəkə istifadəçiləri isə lazımi cavablar verib, qarşısını almalıdırlar".

Şücaət Mehti



**Gürcüstanın həbsdə olan sabiq prezidenti Mixail Saakaşvili Gürcüstan siyasətindən getmək və rəhbərlik etdiyi "Vahid Milli Hərəkat" Partiyasından çıxmaq qərarına gəlib. Bu barədə onun vəkili Valeri Qelbaxiani "İmedi" telekanalına açıqlamasında bildirib.**

# Saakaşvili epoxası artıq sona çatır

O, siyasətdən əl çəkərək, hakimiyyətdən azadlıq dilənir

Vəkilin sözlərinə görə, Saakaşvili təkcə Milli Hərəkatdan deyil, "ümumiyyətlə, Gürcüstan siyasətindən getmək qərarına gəlib, çünki indi bu, siyasət yox, ölüm-dirim məsələsidir". Qelbaxiani vurğulayıb ki, Gürcüstanın eksprezidenti artıq siyasətlə maraqlanmır: "Görünür, o, bu barədə çoxdan düşünürdü, amma heç kim ona bunu açıq elan etmək imkanı vermədi, çünki qalmaqallı dissonans istəmirdilər. İndi də bəyan edir ki, onun heç kimə qarşı heç bir iddiası yoxdur. Onun siyasi resursu tükənib, gündəliyi və vəzifələri də dəyişib. İndi qarşısında duran əsas vəzifə sağlamlığına diqqət etmək, mümkün təhlükədən, ölümdən qaçmaqdır". Bundan əvvəl Mixail Saakaşvilinin vəkili Şalva Xaçapuridze siyasətçinin vəziyyətinin pisləşdiyini açıqlamışdı. O, Saakaşvilinin "çox xəstə" olduğunu demiş və eks-prezidentin vəziyyətini ölü adamla müqayisə etmişdi. Qeyd edək ki, 2021-ci ilin payızında Mixail Saakaşvili səkkiz illik mühacirətdən sonra Gürcüstana qayıdıb və həbs edilib. Ölkəsində ona bir bankirin qətli və deputatın döyülməsi iddiası ilə 6 illik həbs cəzası verilib.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə deyib ki, siyasətdən vaxtında, rüsvay olmamış, nüfuzdan düşməmiş getmək lazımdır.** Partiya təmsilçisinin sözlərinə görə, siyasət futbol kimidir: "Futbolçu necə ki, oynaya bilmədiyi, komandaya xeyir vermədiyi üçün peşəsindən uzaqlaşmaq qərarına gəlir, eyniylə siyasətçi də zamanında getməyi bacarmalıdır. Mixail Saakaşvili Qərbin layihəsi idi. 2000-ci illərin əvvəllərində "narıncı inqilabları" maliyyələşdirən "Soros Fondu" post-sovet ölkələrinin bəzilərində hakimiyyəti dəyişdirdi və öz adamlarını gətirdi. Ancaq Saakaşvili Gürcüstan siyasətində çox qala bilmədi. Bir müddət Ukraynada idarəetmə orqanlarında çalışsa da, uğursuzluğa düçar oldu. Görünür, hansısa qüvvələr Saakaşviliyə vədlər vermişdi, yaxud aldatmışdılar. Elə düşünürdülər ki, Saakaşvili təyyarədən yerə enən kimi gürcü xalqı onu Prezident sarayına aparacaq. Amma bunun əksi baş verdi. Daha sonra isə dünyanı məşğul edən Rusiya-Ukrayna müharibəsi başladı".

*Ə.Məmmədli vurğulayıb ki, indiki məqamda Saakaşvilinin aqibəti, onu "layihə" kimi bölgəyə göndərənlərin maraqlandırmır:* "Eks-prezident mövcud reallığı qəbul etmək məcburiyyətində qalaraq siyasətdən getmək barədə düşünür. Ola bilsin, hakimiyyətlə danışıqlar aparır ki, o, siyasətdən əl çəkəcəyinə söz verəcək və hökumət sabiq rəhbəri həbsdən azadlığa buraxacaq. İstənilən halda Saakaşvili epoxası artıq bitib".

İsmayıl Qocayev



# Çin vəziyyətə səssiz qalmayacaq

“Pekin Pelosinin Tayvana səfərini belə asan unutmayacaq, artıq Tayvana sanksiyalar başlanılıb”

**Çinin sərt etirazlarına baxmayaraq, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosi Tayvana səfər etdi. Pelosi Tayvanın yanında olduqlarını vurğuladı. O, Tayvana səfəri zamanı "Çin Kommunist Partiyası Tayvanı və demokratiyanın özünü təhdid edərkən Vaşinqton kənarda dayana bilməz" deyib:**

"Çin Kommunist Partiyasının artan təcavüzü qarşısında bizim Konqresin nümayəndə heyətinin səfərini Amerikanın özünü və azadlığını müdafiə edən demokratik tərəfdaşımız Tayvanın yanında olduğunu birmənalı bəyanat kimi şərh etmək lazımdır". Əslində Pelosinin bu sözləri onun Tayvana səfəri ilə bağlı müəyyən fikirlər irəli sürməyə əsas verir. Xüsusilə Pelosinin "Çin Kommunist Partiyasının artan təcavüzü" ifadəsi və "Tayvanın yanındayıq" ifadələri diqqət çəkir. Ekspertlərə görə, rəsmi Vaşinqtonun Çinlə münasibətlərinin gərgin olmasının səbəbi bir çox hallarda Pekinin artan iqtisadi göstəriciləri olaraq qeyd edilsə də, bu, tam olaraq belə deyil.

**Siyasi şərhçi Turan Rzayev hesab edir ki, Vaşinqtonu narahat edən əsas məsələ Çinin mövcud siyasi rejimi və bu rejimin Şimali Koreya, İran, Rusiya kimi antidemokratik hakimiyyətlərə dəstək verməsidir.** Onun sözlərinə görə, Vaşinqton faktiki olaraq Çinin xarici siyasətdə bu xətti tutmasından narahatdır: "Vaşinqton bunu önləmək üçün Pekinə əzələ nümayişi həyata keçirir. Bunu həm Tayvan ətrafında hərbi təlimlər keçirməklə, həm də Nensi Pelosini adaya göndərməklə açıqca göstərdi. Əvvəla onu qeyd edim ki, əslində ərazi bütövlüyünün toxunulmazlığı baxımından mövcud situasiyada Çin haqlıdır. Buna görə də Pelosinin Tayvana səfərinə Çin heç də səssiz qala bilməzdi. Təsadüfi deyil ki, Pelosinin Taypeyə enişindən sonra Çin Tayvan ətrafında hərbi təlimlərə başladı. Ümumilikdə səfər öncəsi Çin hökuməti adaya döyüş təyyarələrini göndərməklə yanaşı, ABŞ-a sərt xəbərdarlıqlar da etmişdi. Hətta Çin Xarici İşlər Nazirliyinin sözçüsü Zhao Lijian demişdi ki, Çin suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün kəskin tədbirlər görəcək və Çin ordusu Pelosinin səfərini "oturaraq" izləməyəcək: "Biz istənilən gözlənilməz vəziyyətə hazırıq. Əgər cəsarət edərlərsə, gözləsinlər, görək nə edəcəyik". Çinin Tayvana raket zərbələri endirə biləcəyi ilə bağlı iddialar da səslənirdi. Xoşbəxtlikdən belə bir hal olmadı. Əslində Çinin Tayvana hərbi müdaxilə etməsi real deyil. Əvvəla ona görə ki, Çin iqtisadiyyatı yüksək artım dinamikası ilə seçilib, ABŞ iqtisadiyyatını keçsə də olduqca kövrəkdir. Kövrək olmasının əsas səbəbi isə xaricdən xammal asılılığının olmasıdır. Pekinin Tayvana ehtimal hərbi müdaxiləsi ABŞ-ın ilk növbədə bu ölkəyə iqtisadi sanksiyalar tətbiq etməsi deməkdir ki, bu həm də Qərbin sanksiyasi mənasına gəlir. Lakin bu o demək deyil ki, Çin vəziyyətə səssiz qalacaq. Pekin Pelosinin Tayvana səfərini belə asan unutmayacaq. Artıq Tayvana sanksiyalar başlanılıb. Mümkündür ki, bu sanksiyalar paketi artırılsın. ABŞ-a gəldikdə isə rəsmi Pekin Vaşinqtonla gərginliyi hələ bir müddət, lakin daha fərqli kontekstdə davam etdirəcək".

İsmayıl Qocayev

# Verilən vaxt çoxdan bitib

Sonuncu silahlı erməni Qarabağdan çıxana qədər dayanmayacağıq



**Azərbaycan Müdafiə Nazirliyi Ermənistan XİN-in Azərbaycanı üçtərəfli bəyanatı pozmaqda ittiham etməsi ilə bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, bu, riyakarlıqdan başqa bir şey deyil: "Yaşanan son gərginliyin səbəbi, məhz qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərində mövcudluğu və təxribatlara əl atmasıdır.**

## "Bizim bayrağımız onsuz da Xankəndidə asılacaq. Onlar kosmosa çıxsalar da, biz bunu edəcəyik"

3 avqust tarixində Azərbaycan əsgərinin şəhid olması ilə nəticələnən qanlı insident də məhz Ermənistanın öhdəliklərini yerinə yetirməməsinin nəticəsidir. Üçtərəfli bəyanatın 6-cı bəndinə istinad edərək, Azərbaycanı müvafiq müddəanın pozuntusunda ittiham edən Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, Laçın dəhlizinə alternativ yolun inşası razılaşdırılmış marşrut üzrə artıq uzun aylardır ki, gedir və Ermənistan tərəfi bu yol ilə bağlı kifayət qədər məlumatlıdır. Əgər Ermənistan tərəfi üçtərəfli bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədini güdürsə, bu, bir daha Ermənistanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir. Bölgədə sülh və sabitliyin təmin olunması, habelə münaqişə sonrası normallaşma üçün üçtərəfli bəyanatların tam icrası vacibdir. Azərbaycan, öz tərəfindən üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirir və Ermənistan tərəfinin də bu öhdəliklərə əməl etməsini qətiyyətlə tələb edir".

**Politoloq Tofiq Abbasov Azərbaycan MN-in sözügedən bəyanatı ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, rəsmi İrəvanın sülh prosesinə dağıdıcı yanaşması çox açıq şəkildə özünü büruzə verir:** "Biz Ermənistanı dəfələrlə xəbərdar etmişik ki, Azərbaycan ərzisində erməni silahlı birləşmələri olmamalıdır. Amma görünən odur ki, onlar hələ də ordadır. Əlbəttə, buna bir son qoyulacaq. Hələ dünən bizim cavan bir əsgərimiz erməni gülləsinə tuş gələrək şəhid oldu. Onun qisasını lazımınca aldıq. Yenə də yeni texnologiyalardan istifadə etməklə ermənilərin bloku, zenit raket kompleksi darmadağın edildi. Daha bir neçə mövqeyi vuruldu. Bununla da daha iki yüksəkliyi mənfur düşməndən təmizlədik".

Politoloqun fikrincə, ermənilərin ən böyük səhvi rus sülhməramlılarını özlərinə sipər görmələridir: "Belə bir şey olmayacaq. Ərazi Azərbaycan ərazisidir. Biz torpaqlarımızı işğaldan azad etmişik. Ərazilərimizdə baş verənlərin hamısının nəzarəti bizdədir. Bu oyunlar bitməyincə dayanmaq olmaz. Onlar təxribat törətdikcə başlarından zərbə alacaqlar.

Necə ki, baş verdi. Otuza yaxın zabit və əsgər qurban verdilər. Erməni azlıqlar Azərbaycan torpaqlarında rahat yaşamaq istəyirlərsə, silahı yaddan çıxarmalıdırlar. Əks halda əzilməyə davam edəcəklər".

**T.Abbasov vurğulayıb ki, heç bir dövlət öz ərazisində başqa dövlətin hərbi birləşməsi olmasını istəməz:** "Biz də buna heç vaxt göz yummayacağıq. Torpaqlar, ərazi bizimdir. Ermənilər də orda dinc yaşamaq istəyirlərsə, silah-sursatı yerə qoyub bizim qanunlara tabe olmalıdırlar. Bizim bayrağımız onsuz da Xankəndidə asılacaq. Onlar kosmosa çıxsalar da, biz bunu edəcəyik".

Politoloq hazırkı proseslərə Rusiya sülhməramlılarının təsirindən söz açıb: "Onlar da söz vermişdilər ki, iyulun axırına kimi erməni silahlı birləşmələri Qarabağ ərazisindən çıxarılacaq. İyul ayı bitdi, bizsə bunun əksini gördük. İndi proses başlayıb. Necə deyərlər, siz saydığınızı sayın, görün fələk nə sayır. Biz öz ərazimizi razı olsanız da, olmasanız da həmin ünsürlərdən təmizləyəcəyik. Nəzarət tamamilə bizdədir".

Günəş Mərd

# Qobustanda şəhid ailəsinin evindən oğurluq edilib



**Qobustan rayonunun Nabur kəndində yerləşən şəhid ailəsinə məxsus evdən məişət əşyalarının oğurlanması barədə Rayon Polis Şöbəsinə müraciət daxil olub.**

Müraciət əsasında polis əməkdaşları hadisə yerində olub, zəruri prosessual hərəkətlər yerinə yetirilib.

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan "Şərq"-ə verilən məlumata görə, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən zərərçəkmişin həmkəndlisi, əvvəllər də məhkum olunmuş Ceyhun Abdullayev tutularaq istintaqa təhvil verilib. O, ifadəsində əməlini etiraf edib və oğurladıqlarını metal qəbulu məntəqələrinə satdığını bildirib. Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxsin digər hüquqazidd əməllərdə iştirakının olub-olmaması araşdırılır.

# Epidemioloji vəziyyət nəzarət altındadır

Amma yenə də insanlar ehtiyyat tədbirlərini əldən verməməlidirlər



**"Yay aylarında xarici ölkələrə turistik səfərlərin artması ilə əlaqədar yoluxma sayında da yenidən artım göründü".**

Bunu Milli.Az-a açıqlamasında həkim-infeksionist Nilufər Məmmədova deyib.

O bildirib ki, insanlar məsuliyyətli olsalar, xəstələr özlərini izolyasiya etsələr yoluxma sayında ciddi artım olmaz:

"Yoluxma sayının 500-ü küçməsi heç də epidemioloji vəziyyətin nəzarətdən çıxdığı anlamına gəlmir, o mənanı kəsb etmir. Epidemioloji vəziyyət nəzarət altındadır, ciddi bir təhlükə yoxdur. Amma yenə də insanlar ehtiyyat tədbirlərini əldən verməməlidirlər, qorunma qaydalarına yenidən başlayaraq ciddi əməl etməlidirlər. Payız aylarında isə normal koronaviruslarda da artım müşahidə edildiyi üçün təbii ki, məntiqi olaraq burada da artma müşahidə oluna bilər. Amma hazırda karantin rejimini tələb edəcək bir vəziyyət yoxdur. Düşünürəm ki, yaxın günlərdə də bunu gərəkdirən bir duruma şahid olmayacağıq. Təbii ki, bunun üçün də insanlar məsuliyyətli olsalar, xəstələr özlərini izolyasiya etsə və qapalı məkanlarda yenidən maska taxmağa şəxsi istəyimizlə davam etsək, yoluxma sayında ciddi artım görməyə bilərik".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;**




# Daşkənd Bəyannaməsi türk dünyasının rifahına hesablanıb

## Vüqar Bayramov: "Azərbaycan və Mərkəzi Asiyada yerləşən türk dövlətləri MDB çərçivəsində qarşılıqlı ticari rejimi artıq formalaşdırıblar"

**Azərbaycan çoxvektorlu xarici siyasət nəticəsində Xəzərətrafı ölkələrlə də münasibətlərini yeni mərhələyə çatdırmaq niyyətini ortaya qoyub. Xüsusilə, Orta Asiya ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi diqqət çəkir. Elə bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana və Türkmənistana səfərləri oldu. Bakıda Azərbaycan, Qazaxıstan və Türkiyənin xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin birinci üçtərəfli toplantısı keçirildi.**

Müzakirələrdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişaf etdirilməsi, bu istiqamətdə mövcud olan yük daşımaları diqqət mərkəzində oldu. Görüşdə mövcud problemlər, dar boğazların aradan qaldırılması, bu coğrafiyada nəqliyyat və kommunikasiya əməkdaşlığının genişləndirilməsi istiqamətlərində yeni fikirlər və təkliflər səsləndirildi. Qeyd edək ki, Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi) 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif, "Bir pəncərə" prinsipi tətbiq olunur. Maraqlı məqam ondan ibarətdir ki, bu dəhliz 2014-cü ildə yaradılsa da, Rusiya-Ukrayna müharibəsi fonunda yenidən aktuallıq qazanıb. Rusiya-Ukrayna müharibəsi fonunda dünya siyasətində baş verən hadisələr Asiya ilə Avropa arasındakı iqtisadi əməkdaşlıq zəncirində çətinliklər yaradıb. Bu coğrafiyalarda yerləşən ölkələr yeni əməkdaşlıq marşrutlarının axtarışındadır. Belə bir marşrutlar üçün ən münasib istiqamət məhz Azərbaycandan keçir. Orta Asiyada Qazaxıstanda qəbul olunan yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Dəniz Limanına və Bakı-Tbilisi-Qars dəmiryolu vasitəsilə Türkiyədən Avropaya çatdırılır. Amma Zəngəzur dəhlizinin istifadəyə verilməsindən sonra bu marşrut daha da qısalacaq və yüklər Azərbaycandan birbaşa Türkiyəyə çatdırılacaq. Belə ki, bu marşrut Orta Dəhliz olaraq dünya üçün əhəmiyyətə malik bir nəqliyyat kommunikasiya qovşağına çevrilməklə Xəzər dənizinin və Qara dənizin birləşməsinə gətirib çıxaracaq.

Ötən gün Özbəkistanın paytaxtı Daşkənddə baş tutan Türkiyə-Özbəkistan-Azərbaycan xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşü də məhz regional əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin görüş Azərbaycan tərəfinin təklifi və Türkiyənin dəstəyi ilə həyata keçirilib. Toplantıda Türkiyə, Özbəkistan və Azərbaycanın xarici işlər, ticarət və nəqliyyat nazirləri ortaq məsələlər, xüsusilə üçtərəfli mexanizmə əsasən Xəzər keçidli Şərq-Qərb Orta Koridorunun yaradılmasında koordinasiya və əməkdaşlığın artırılması ilə bağlı müzakirələr aparıblar. Türkiyə, Özbəkistan və Azərbaycan regionlararası əməkdaşlıqda mühüm rol oynayır. Türk xalqlarının yaşadığı bu bölgələr min illərdir Şərqlə Qərb, Şimalla Cənub arasında körpüdür. Özbəkistan Bakı-Tbilisi-Qars dəmir yolunun tranzit potensialından fəal istifadəyə böyük əhəmiyyət verir. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin tikintisi üzrə texniki-iqtisadi əsaslandırmalar bu gün də davam edir. Bu baxımdan Özbəkistan Zəngəzur dəhlizinin yenidən aktivləşməsini dəstəkləyir. Asiya və Avropa arasında bu marşrut ən qısa yol olacaq. Ümumən, beynəlxalq əlaqələr və qlobal iqtisadiyyatda baş verən sürətli proseslər əslində Türkiyə-Özbəkistan-Azərbaycan dialoq formatının inkişafını zəruri etdi. Dövlət başçılarının siyasi iradəsi və son illər çəkdikləri yollar sayəsində Özbəkistanın Azərbaycan və Türkiyə ilə münasibətləri yeni dövrə qədəm qoyub və strateji əhəmiyyət qazanıb. Ölkələrimiz bir çox beynəlxalq məsələdə ortaq mövqe tutub və eyni məqsəd üçün səy göstərib. Bu, sülhsevər, daimi və dinamik türk dünyasının bir araya gəlməsi deməkdir. Nazirlər toplantıdan sonra Daşkənd Bəyannaməsini imzalayıblar.

Özbəkistan Prezident Administrasiyası rəhbərinin müavini və Prezidentin mətbuat katibi Şerzod Asadov tviterdə yazıb ki, Azərbaycan, Türkiyə və Özbəkistan arasında regional əlaqələrin möhkəmlənməsinə yönəlmiş nazirliklər səviyyəsində yeni əməkdaşlıq formatı yaradılacaq: "Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu və Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramovla görüş keçirəcək. Özbəkistan, Azərbaycan və Türkiyə liderlərinin təşəbbüsü ilə regional əlaqələrin möhkəmlənməsinə yönəlmiş nazirliklər səviyyəsində yeni əməkdaşlıq formatı yaradılacaq".

**Millət vəkili Vüqar Bayramov vurğulayıb ki, Daşkənd Bəyannaməsi türk dünyasının rifahını yüksəldəcək bəyannamə kimi qiymətləndirilir. Deputatın sözlərinə görə, son 2 ildə Türk dövlətləri arasında münasibətlərin daha da dərinləşməsi müşahidə olunur:** "Əvvəllər Azərbaycan-Türkiyə münasibətləri daha çox diqqəti çəkirdisə, hazırda türk dövlətləri arasında yeni əməkdaşlıq platforması qurulmaqdadır. 1.2 tirlyon nominal ÜDM və 153 milyonluq əhalisi ilə türk dünyası regionda yeni gücə çevrilməkdədir. Bu baxımdan, kifayət qədər geniş və strateji baxımdan vacib hesab olunan coğrafiyada qardaş dövlətlər arasında daha ünvanlı və sistemli əməkdaşlıq reallaşır. Bu formatda əməkdaşlıq ölkələr arasında daha liberal ticarət rejimlərinin formalaşmasına imkan yaradacaq. Azərbaycan və Mərkəzi Asiyada yerləşən türk dövlətləri MDB çərçivəsində qarşılıqlı ticari rejimi artıq formalaşdırıblar. Türkiyə ilə Azərbaycan arasında imzalanan preferensial ticarət sazişi ötən ilin martında qüvvəyə minib. Türkiyə Özbəkistanla oxşar sazişi imzalamaq mərhələsindədir. Bu isə ondan xəbər verir ki, türk dünyasında növbəti illərdə iqtisadi əlaqələr daha da dərinləşəcək".

*Parlament üzvü bəyan edib ki, artıq dövlətlər daha dərin və liberal ticari əlaqələrə malik olmaq və birgə layihələrin reallaşdırılması ilə bağlı real əməkdaşlıq nümayiş etdirirlər: "Bu isə qardaş dövlətlərin daha da yaxınlaşmasına şərait yaradır.*

Nəhayət, son bəyannamə bir daha təsdiq edir ki, münasibətlər daha ünvanlı və qarşılıqlı fayda əsasında qurulan bir əməkdaşlıq formatıdır. Dünyada formalaşdırılan yeni düzən kontekstində regionun yeni iqtisadi xəritəsi cızılmaqdadır".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Mətbuatın Xan Arazına elegiya

## Tanınmış jurnalist Araz Zeynalovun vəfatı böyük hüzn yaratdı

**Azərbaycan mediası daha bir işıqlı adamını itirdi. Tanınmış jurnalist Araz Zeynalov uzun sürən ağır xəstəlikdən sonra vəfat edib. Mərhumun cənazəsi Yasamal qəbiristanlığında torpağa tapşırılıb. Mərasimdə media təmsilçiləri, jurnalistin ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Araz Zeynalovun qardaşı Aqşin Zeynalov qardaşının ürəktutmasından dünyasını dəyişdiyini deyib: "İnfarkt keçirdikdən sonra xəstəxanaya yerləşdirdik. Orada məlum oldu ki, nə zamansa koronavirusa da yoluxubmuş".**

A.Zeynalov bildirib ki, qardaşı ömrünün son günlərinə qədər medianın inkişafı üçün əlindən gələni əsirgəməyib. Azərbaycan Mətbuat Şurası tanınmış jurnalist Araz Zeynalovun vəfatı ilə bağlı nekroloq yayıb: "Azərbaycanın müasir dövr jurnalistikasının tanınmış simalarından olan Araz Zeynalov vəfat edib. Mərhumun doğmalarına, əzizlərinə dərin hüznlə başsağlığı veririk. Araz Hidayət oğlu Zeynalov. 1961-ci il iyulun 7-də Bakı şəhərində jurnalist ailəsində anadan olub. 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsini bitirib. A.Zeynalov mənalı ömür yaşayıb. Bu ömrə məna verən onun söz sənətinə könüldən bağlılığı, sözün məqamını daim uca tutması olub. Yaddaşlarda da jurnalistikaya kübarlıq, alicənablıq gətirməyi bacaran həmkar kimi qalıb. A.Zeynalov çalışdığı "Azərbaycan gəncləri", "Panorama", "Kaspi" qəzetlərində, həmçinin "Vesti.az" saytında özünəməxsus peşəkarlıq dəst-xətti ilə seçilməklə yanaşı, bu media orqanlarında fəaliyyətə başlamış gənc həmkarları üçün örnəyə, etalona çevrilmişdi. Onlara praktik müstəvidə peşənin sirlərini öyrətmiş, jurnalistikanın məziyyətlərinə qatlaşmağı, incəliklərini nəzərə almağı zövq işi kimi aşılamışdı. Onu tanıyan hər kəs üçün qayğıkeşlik, təəssübkeşlik, səmimiyyət nümunəsi olan, düşüncələrdə canlı məktəb kimi qalan A.Zeynalovun vəfatı Azərbaycan jurnalistikası üçün böyük itkidir. Bir daha mərhumun doğmalarına, əzizlərinə, dostlarına, saysız-hesabsız həmkarlarına dərin hüznlə başsağlığı verir, kədərlərini, acılarını bölüşürük".

Sosial mediada A.Zeynalov haqqında yazılan xatirələr, kədərli statuslar da göstərir ki, mərhum həmkarımız bütün media cameəsinin sevdiyi və rəhmət dilədiyi biri olub.

**Jurnalist, tərcüməçi İbrahim Nəbioğlu A.Zeynalov** haqqında "O mənim dostumdur. Can dostum, sirdaşım, yoldaşım" deyə bəhs edib.





*İ.Nəbioğlu onun haqqında heç vaxt keçmiş zamanda danışa, yaza bilməyəcəyini deyib:* "Və indi, bu dəqiqə, onun yaratdığı bu boşluqda anlayıram, onun arxasınca nəsə yazmaq əlimdən gəlməyəcək

Bu yazını 60 yaşı tamam olan gün - doğum günündə yazmışdım. Burada Araz indiki zamandadır, hər zaman da belə qalacaq

**ARAZ, BURDAYIQ, DUR GƏL...**

Arazın 60 yaşı tamam olur bu gün. Əfsanəvi Hidayət Zeynalov və bənzərsiz Məryəm xanımın oğlu, Aqşinin böyük qardaşı, Orxan Zeynallının atası, Rəbiyyə xanımın ömür-gün yoldaşı, Afaq Vasifqızının qaynı, Azad Zeynalovun əmisi oğlu, Azer Suleymanovun sinif yoldaşı və ən yaxın dostu, bir çox dostumun Baş redaktoru, Vüqar Həsənovun, Mətin Yaşaroğlunun, Tural Ağatlının Abisi, xeyli həmkarımın Ustadı...

"Panorama" qəzeti yayım həyatına başlayanda Eldar Namazov Ankarada, Çankaya köşkündə mənə dedi ki, təzə çıxan qəzetə yazı yaz. "BBC-yə sərf etdiyin vaxtı yenicə ərsəyə gələn qəzetə sərf et. Araza zəng edərsən Bakıya gələndə", - ən axırda belə dedi Eldar müəllim...

Bakıya gələndə Araz Qurbanova telefon edib, "Köşə yazmağa fiziki olaraq imkanım yoxdur" dedim. Əziz Araz (Qurbanov) "Nə qəzet, qəzetim zadım yoxdur" dedi.

Araz Qurbanovu şəxsən tanıyırdım. Araz Zeynalovu qiyabi tanıdığımdan qarışdırdım iki məşhur Arazı. Və yazmadım. 6 ay sonra Azərbaycan prezidenti, mərhum Heydər Əliyev rəsmi səfərlə Ankaraya gələndə "Çamlı Köşk"də mənə "Sən niyə köməkçimin sözünü yerinə yetirmirsən?" deyəndə cavab verməyə söz tapmadım.

Səfər başa çatanda prezidentin təyyarəsi ilə Bakıya gəldim. Arazla (Zeynalovla) ilk dəfə qəzetin redaksiyasında, onun böyük kabinetində tanış olduq. Məni Respublika Xəstəxanasının yanındakı bir restorana dəvət etdi, "Gedək bir az iş danışaq" dedi.

Çatanda bütün redaksiyanın (kişilər) restoranda (əslində o vaxt Bakıda restoran az idi, kafe idi yəqin) olduğunu gördüm. Yolda Araza çox üz vurmayın ("Siz" deyə müraciət edirdim ilk gün), həftədə 1 yazı yazaram dedim.

Bir həftə sonra həftədə 2 dəfə, 3 həftə sonra isə hər gün yazmağa başladım. AzTV-nin sədri, professor Nizami Xudiyev bir ay sonra Ankaraya zəng elədi ki, a bala, sən AzTV-nin müxbirisən, ya "Panorama"nın? Nizami müəllimə dedim ki, bütün iradlarınızı Eldar Namazova bildirin. Bildirmədi. Həm də görünür, əla bir qəzetin yayım həyatına başlamasından o da məmnun idi. Ancaq "A bala, həm "Zerkalo"da imzan var, həm "Panorama"da, olmaz axı belə" deyəndə razılaşdım, daha "Zerkalo"ya yazmayacağımı dedim. Ancaq Elçinin (Şıxlı) qəzetinə bir müddət "Bulud Günəş" imzası ilə yazmağa başladım...

Arazı işsiz qaldığı günlərdə də müşahidə etdim, illərlə çətinlik çəkdiyi vaxtlara şahid oldum, izlədim. Yoldaş olduq, bir də baxdım ki, dostuq. Dostluq etdik uzun illər, bir də gördük ki, qardaş olmuşuq. Sınmadı Araz, tanıdıqca, ailəsini, Orxanı, HOST-u tanıdıqca, "Torpağı verməyiblər, orda təkcə qəbir qazaq" misralarını dinlədikcə çox uzun yol qət etdik, ölərək, əksilərək, yaşlanaraq gəldik.

"Vesti" mərhələsi başladı. Araz bir kəlmə dedi ki, kömək elə, yaxşı bir media təşəbbüsü var. İlk gündən xəbər yazdım, məqalə, publisistika yazacaq yaşda xəbər yazmağa başladım - dörd, beş cümləlik xəbərlər, çox vaxt imzasız, çox vaxt ünvansız.

Araz yenə də bacarmışdı, "Panorama"ya verdiyi sevgini "Vesti"yə yönəltmişdi. Araz yenidən doğulmuşdu, inanırdı ki, faydalı bir iş görür. Və yanılmamışdı. "Araz necəsən?" deyə sual edəndə təvazökarcasına "Ermənilərlə mübarizə aparırıq" deyirdi...

Vətən müharibəsindəki media savaşında Arazın da şəksiz payı var. Arazın da bizim "jenerasyon" kimi tək bir gözləntisi vardı - erməniləri piyada qoymaq, Qarabağ Zəfərinə hazırlaşmaq, Şuşanın dumanlı dağlarına doğru yola çıxmaq...

Bakıdayam, bu sətirləri Arazın dostu, vəfalı Siyavuş Atakişiyevin xudmani məkanında yazıram. Bura Arazın dostları ilə gözəl günlər gördüyü yerdir. Bir saatdır burdayam. Günorta Arazın ata evində, Hidayət müəllimin ocağında idik - Araz, mən, Ağamehdi, Azad (akademik), Aqşin və Siyavuş. 60 yaşını təbrik etdik. Araza kimlər zəng elədi, kimlər ziyarətə gəldilər - oturub izlədim. "İstədiyim adamlar da təbrik edəcəklərmi?" deyə maraq etdim...

Heyyyy, vəfasız dünya, heyyyyy, yaxşı günlərin dostları... Axı Araz yaxşıdı, niyə zəng vurmursuz, niyə ona difirambalar düzmürsüz... Bilirəm niyə beləsiz...

Araz, burdayam, Siyavuşla məkan bağlanana qədər səni gözləyəcəm. Əminəm ki, gələcəksən. Hələlik..."

**Jurnalist Aidə Eyvazlı isə A.Zeynalovdan jurnalistikamızın əfsanəsi deyə bəhs edib:** "Araz, Araz Xan Araz,
Sultan Araz! Xan Araz...

Əziz dostum, mərd dostum, heyif səndən... Hər dəfə səsli mesajlarımı cavablandırırdın... 1, həftə əvvəl isə dinlədin, cavab vermədin, səninlə görüşmək istəyirdim... Cavablandırmadın... Fikirləşdim ki, yəqin narahat etməsəm yaxşıdır... Əzizlərimizi, yaxşılarımızı itiririk".

**Hüquqşünas Səbuhi Axundovun sözlərinə görə, Araz müəllimin həmkarları, həmyaşıdları onu yaxşı tanıyırlar və barəsində bundan sonra da yüksək fikirləri bölüşəcəklər:** "Mən istədim yazım və həmyaşıdlarıma bildirim ki, Araz Zeynalov kimi jurnalist, şəxsiyyət, sadəliyi, səmimiliyi, köhnə kişilərə məxsus ağır davranışı özündə cəmləşdirən insan çox az görmüşəm. Bilin ki, onun kimi ədəbli, ərkanlı və səbirli kişi bəlkə də barmaqla sayılacaq qədərdir bu həyatda. Ömür boyu əlində qələmi olan insanın, cəmi iki şəkli çıxdı axtarış sistemindən. Bu ondan xəbər verir ki, heç vaxt özünü reklam etməyib, heç vaxt da şöhrətpərəst olmayıb. Nə xoş mənə ki, Araz müəllimlə bir kollektivdə çalışmışam, onu tanımaq şərəfinə nail olmuşam. Dərin informasiyaya sahib biri idi. Onun xətrini həm də ona görə çox istəyirdim ki, müstəqillik dönəmində öz sahəsində təmiz qalmağı bacaran az sayda insanlardan biridi. Əminəm ki, heç kimə pisliyi dəyməyib. Məni görən kimi həmişə Qazaxla bağlı xatirələrini danışardı. Yaşımız arasındakı fərqi heç hiss etdirmirdi. Çox böyük kişi idi. Belə insanlar dünyadan köçdükdə dünya tamam boşalır. Allah sizə rəhmət eləsin, Araz müəllim!".

**Jurnalist Jalə Mütəllimova:**

- Əlvida, Araz Zeynalov. Sən Azərbaycan mediasının az sayda qalan, ağ rəngli adamlarından idin. Öyrənməli, mərd, əqidəli kişilərindən idin, əlvida!.. Yaxşı ki, bir kollektivdə çalışmışıq usta, yaxşı ki, səni tanımışam.

**APA TV-nin baş direktoru Orxan Məmmədli:**

- Araz müəllim atamla tələbə yoldaşı olub. "Ayrı adamlar"dan idi.

Tələbəlik illərindən hansısa xatirəni danışanda anonsu əvvəlcədən üzündə təbəssüm yaradırdı. Bilirdim ki, nəsə xoş bir şey yadına düşüb. Ümumilikdə də çox xoş adam idi. Ağayana idi.

Ruhunuz şad olsun, Araz müəllim!

**Şəymən**

# Qaz, elektrik enerjisi çox təhlükəlidir

## Az qala indi hər kəs özünü "usta" sayır



**Abşeron rayonu, Xırdalan şəhərində Qalubiyyə küçəsində yerləşən beşmərtəbəli binanın üçüncü mərtəbəsində ilkin ehtimala görə qaz sızmasından baş vermiş partlayışla bağlı Fövqəladə Hallar Nazirliyinin Əməliyyat-istintaq idarəsində araşdırma davam edir. FHN-in mətbuat xidmətinin məlumatında bildirilir ki, hadisənin başvermə səbəbinin və dəymiş ziyanın müəyyən olunması üçün müvafiq ekspertizalar təyin edilib.**

Xatırladaq ki, partlayış avqustun 3-ü, axşam saatlarında baş verib. Nəticədə dörd nəfər müxtəlif dərəcəli bədən xəsarəti ilə xəstəxanaya yerləşdirilib. FHN-in əməkdaşları tərəfindən bina sakinləri təxliyə edilərək hadisə yerində müvafiq təhlükəsizlik tədbirləri həyata keçirilib. Hazırda rayon rəhbərliyi tərəfindən bütün zərərçəkən ailələrin müvəqqəti kirayə evlə təmin olunması sahəsində işlər görülür. Partlayış nəticəsində zərərçəkən sakinlərin qeydiyyatı aparılır və onların hamısı müvəqqəti olaraq kirayə evlərlə təmin olunacaqlar. Kirayə mənzillərdə yerləşdiriləcək ailələrin ödənişləri Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən ödəniləcək. İlkin məlumata əsasən, partlayış nəticəsində 20-yə yaxın mənzilə, 6 bloklu binanın 2 blokuna ziyan dəyib. Qaz, elektrik enerjisi binada tam olaraq kəsilib. Binaya və ərazidəki avtomobillərə dəyən zərər aidiyyəti qurumlar tərəfindən araşdırılır. Faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanıb.

"Xırdalanda yaşayış binasında partlayışın qaz sızmasından baş verməsi mümkündür". Bu barədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev deyib. "İlkin məlumata görə, Xırdalanda yaşayış binasında partlayış zamanı xəsarət alanlardan ikisi mənzildə təmir işləri aparan ustalar olub. Lakin bu, ehtimaldır. Tam məlumat araşdırmalar başa çatdıqdan sonra olacaq. Buna görə də hələlik bizdə əsaslı məlumat yoxdur", - R.Əliyev vurğulayıb. O qeyd edib ki, binaya təbii qazın nəqli tam dayandırılıb: "Hadisə ilə bağlı müvafiq orqanlar tərəfindən birgə araşdırmalara başlanılacaq. "Azəriqaz" İstehsalat Birliyi də prosesə cəlb olunacaq. Bundan sonra ictimaiyyətə tam məlumat veriləcək". R.Əliyevin sözlərinə görə, ola bilər, hadisə qaz sızmasından baş versin: "Çünki təmir işləri gedən zaman sakin özü mənzildə olmayıb. Evdə ustalar olub. Qonşuların və ustaların verdiyi məlumata əsasən bu ehtimal (qaz sızmasıred) mümkündür. Mənzilin təmir edilməsi ilə bağlı "Azəriqaz" İstehsalat Birliyinə hər hansı məlumat verilməyib ki, qazın verilməsi dayandırılsın. Hər hansı müraciət daxil olmayıb". R.Əliyev qeyd edib ki, əlavə xəbər olsa, "Azəriqaz" İstehsalat Birliyi bu barədə ictimaiyyətə məlumat verəcək.

***Elektrik xətlərini özləri birləşdirir, qaz, su borusunu özləri çəkir, yaxud da bu işi bildiyini güman etdikləri dostlarını, tanıdıqlarını dəvət edirlər***

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında partlayışın başvermə səbəbinin ilkin ehtimal kimi qaz sızmasının göstərilməsinin daha inandırıcı olduğunu bildirdi:**

- Müvafiq orqanlar araşdırma aparacaq və əsl səbəb bilinəcək. Amma ilkin ehtimal olaraq qaz sızmasının göstərilməsi daha inandırıcıdır. "Azəriqaz" rəhbəri də bu barədə danışıb və partlayış baş vermiş mənzildə təmir aparıldığının aydınlaşdığını deyib. Bəzən vətəndaşlarımız təmir-tikinti zamanı təhlükəsizlik məsələlərinə önəm vermir. Az qala hər kəs özünü "usta" sayır. Elektrik xətlərini özləri birləşdirir, qaz, su borusunu özləri çəkir, yaxud da bu işi bildiyini güman etdikləri dostlarını, tanıdıqlarını dəvət edirlər. Nəticədə bəzən görürük ki, qaz xətti də səhv çəkilib, səhv qoşulub, su xəttini qaz borusuna qoşublar, Kombi sistemləri də çox zaman bu cür səhv quraşdırılır. Mənzildə təmir aparılarkən xüsusilə elektrik xətləri, qaz çəkilişi və ya qaz borularının dəyişdirilməsi zamanı mütləq mütəxəssislərə, "Azəriqaz"ın yerli bölmələrinə müraciət edilməlidir. Qaz istismar idarəsinin əməkdaşları, inanın, bu işi çoxlarından daha yaxşı, dəqiq, güvənli yerinə yetirəcəklər. Mənzildə təmir aparılırsa, bu haqda yerli orqanlara xəbər verilməlidir. Hətta fərdi evlərdə aparılan təmir, tikinti işləri zamanı da təhlükəsizlik məsələlərinə ciddi fikir verilməlidir. Qaz, elektrik enerjisi çox təhlükəli məsələlərdir. Hansısa qaz sızıntısı, elektrik xəttinin düzgün qoşulmaması həm ev sahibinə, həm də ətrafdakı evlərə zərər verə, insan tələfatı ilə nəticələnə bilər. Çoxmənzilli binalarda isə diqqət üst səviyyədə olmalıdır. Çünki mənzillər bir-birinə bitişikdir. Yaşayış binaları panellərin bir-birinə bağlanması yoluyla tikilir. Ümumi qaz, su xətti, elektrik enerjisi bloku olur. Bir mənzildə baş verəcək nasazlıq bütün binanı silkələyə, güclü partlayışa və insan tələfatına, ağır xəsarətlərə səbəb olar.

E.Nurəliyev qeyd etdi ki, qaz, işıq, su idarələri ərazilərdə mütəmadi yoxlamalar, monitorinqlər aparmalı, qəzalı vəziyyətdə olan, köhnəlmiş boruları, xətləri yeniləməli, təhlükəsizlik məsələlərini gözardı etməməlidir.

**Məlahət Rzayeva**



# Sosial şəbəkələrdə təhqirlər çoxalıb

## Səbuhi Abbasov: "Hüquq-mühafizə orqanlarının prosesi tam nəzarətə götürmək imkanı yoxdur"

**Sosial şəbəkələr həyatımızın ayrılmaz parçasına çevrilib. İstifadəçilər müəyyən mövzunu müzakirəyə çıxarır, fikir mübadiləsi aparırlar. Lakin bəzi hallarda bu fikir mübadiləsi təhqirlə, dava-dalaşla nəticələnir. Təzəlikcə Bakıda Lökbatan qəsəbəsində yerləşən "Meyvəli bazarı"na şort geyinən şəxslərin girişinin qadağan olunmasını əks etdirən foto paylaşılıb. Sosial şəbəkə istifadəçiləri arasında ziddiyyət yaranıb.**

Baş Prokurorluğun Mətbuat Xidməti internetdə bir-birilərini təhqir edən şəxslərə xəbərdarlıq edib. Prokurorluqdan bildirilir ki, belə hallar təkrarlanmamalıdır, əks halda müvafiq tədbirlər görüləcək.

**İnternet-media eksperti Səbuhi Abbasovun "Şərq"ə açıqlamasına əsasən, sosial şəbəkələrdə təhqir predmeti uzun illərdir ki, dünyada bəlaya çevrilib:** "Adətən təhqirləri saxta profillərdən yazırdılar. Bəzi sosial şəbəkələr profilaktik işlər apardıqdan sonra saxta profillərin 70-80 faizi sıradan çıxdı. Artıq real profillər təhqir yazdığı üçün şikayətlər çoxaldı. Azərbaycanda məsələyə həssas yanaşılır. Son 3 ildə qanunvericilikdə müvafiq dəyişikliklər də olub. Mərhələli şəkildə tədbirlər də görülüb. Lakin problem köklü həll olunmayana qədər insanlar qarşısında aciz qalır. Sosial şəbəkədə sərhəd anlayışı yoxdur. Bu platformada hər kəs öz mövqeyini ortaya qoya bilir. Tutalım, xaricdə yaşayan azərbaycanlı təhqirli şərh yazır. Digəri isə Bakıdadır. Problemi çərçivəyə salıb tədbir görmək çətin mexanizmdir".

**S.Abbasovun qənaətincə, insanlar sosial şəbəkələrin funksiyalarından bixəbərdir:** "Sosial şəbəkələrin təhlükəsizlik bölümü var. Hüquq-mühafizə orqanlarının prosesi tam nəzarətə götürmək imkanı yoxdur. Mexanizm qurmaq da mümkün deyil. Ya sosial şəbəkə bağlanmalıdır, ya da ünvanı bəlli şəxslər hüquqi cəhətdən qiymətləndirilməlidir.

Kimsə sosial şəbəkədə təhqir olunmaq istəmirsə, "filter" funksiyasından yararlana bilər.

Belə ki, müəyyən sözləri daxil edirlər. Elə bir şərh gəldiyi təqdirdə avtomatik şərhlər filtirlənir. Və yaxud şərh bölümünü bağlasınlar. Vətəndaşlar hüquqlarını bilməlidir. Əgər kimsə təhqir olunursa, hüquqi qiymət verilməsi üçün müvafiq orqanlara müraciət ünvanlanmalıdır. Sosial şəbəkədə "dəstək" funksiyasından da istifadə etmək olur. Yazılan şərhi ekran görüntüsünü göndərmək, yaxud "spam" etmək olar".

**Aygün Tahir**

# Bəzi marketlərin öz statusları var

## Rauf Qarayev: "Bahalı marketlər qiymətin düşməyində maraqlı deyillər"



**"Bir də görürsən marketlər tərəfindən 3-4 yeşik pomidor, badımcan və sair məhsullar zibilliyə tullanır. İnsanlar narazılıq edir ki, onları istifadə etmək olar. Çünki 40 faizi yararsızdır". Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı Rauf Qarayev deyib. Məsələyə iqtisadi baxımdan yanaşan ekspert deyib ki, malın çölə tullanması onun artıq istifadəyə yararsız olması ilə bağlıdır. Yəni ola bilər pomidorun 40 faizi yararsızdır:**

"Amma bir çox məhsullar kimyəvi qatqılı olduğu üçün, demək, zəhərlənmə ehtimalı da yüksəkdir. Bunun dəfələrlə də şahidi olmuşuq. Market isə qınaq obyektinə çevrilməsin deyə, məsuliyyətdən uzaq olmaq üçün bu məhsulları məhv edir. Bəzi məhsullar var ki, məsələn, ağartı məhsulları, onlar istehsalçıya qaytarılır. Baxmayaraq ki, üstündə son istifadə tarixinə 3 gün qalır. Səbəb odur ki, belə mallar satılsa belə, onlar alıcı tərəfindən saxlanmağa qoyduqda xüsusi tam, qoxu verə bilər. Yəni istifadəçi onu saxlayıb sonra istifadə etdikdə zəhərlənə bilər. Bu ehtimalla və məhsulun kimyəvi tərkibi dəyişdiyinə görə ağartı məhsulları zibilliyə yox, istehsalçıya qaytarılır ki, özləri onu utiliza etsinlər. Ölkədə iri marketlərin outlet marketləri də var. Misal olaraq, OBA, Al Marketi göstərmək olar. Burada nisbətən ucuz mallar satılır. Məhsulun son istifadə tarixinə ən azı 1 həftə qalmış outletlərə həmin mallar göndərilir. Satışı həm də burada keçirilir, iri marketlərdə isə bununla bağlı endirim kampaniyası təşkil olunur. Bu, Avropa praktikasından irəli gəlir. Düzdür, burda biznes maraqları da var ki, insanlar daha ucuz qiymətə öyrəşməsin, çünki marketlərin öz statusları var. Daha keyfiyyətli və baha qiymətə məhsul satan marketlər qiymətin düşməyində maraqlı deyillər".

**İqtisadçının sözlərinə görə, Almaniyada məhsulun son istifadə tarixinin bitməsinə 1 həftə qalmış marketlər öz müştərilərinə sms, elektron poçt vasitəsi ilə məktub yollayırlar, onlar əvvəl baha aldığı məhsulu ucuz almaq üçün marketlərə gəlsinlər:** "Məhsulun son istifadə tarixinə 3 gün qalmış qiymət maya dəyərindən daha ucuz qiymətə təklif olunur. Beləliklə məişət tullantılarına məhsulların getməməsi üçün son istifadə müddətinə az qalmış xüsusi sosial yönümlü şirkətlərə bunu pulsuz verirlər ki, onlar aztəminatlı ailələrə bu məhsulu versin. Market burada həm reklam olunur, həm də dövlətə köməklik göstərir. Bundan əlavə Şotlandiyanın Aberdin şəhərində 1 dollarlıq marketlər var. Əsasən təqaüdçülər üçün nəzərdə tutulub. 1 dollara buradan toyuq əti, makaron, süd məhsulları, meyvə və tərəvəzlər almaq olur. Yəni istifadə müddəti az qalan məhsullar bu marketlərə paylanılır. Nəticədə demək olar çox cüzi məhsullar məişət tullantıları poliqonuna gedə bilər və getməyə də bilər. Odur ki, bizim iş adamlarına tövsiyəm budur ki, bu praktikadan faydalansınlar. Belə halda sizlər savab iş görə bilərsiniz".

**Şəymən**

# 77 nəfər saxlandı

## Onlar narkomaniyanı yayan, silsilə oğurluq, dələduzluq edən və qanunsuz silah gəzdirən insanlardır

**Respublika ərazisində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyatlar davam edir.**

Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən iyun-iyul ayları ərzində şəhər ərazisində keçirilən əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi, eləcə də kultivasiyası ilə məşğul olan, silsilə oğurluq, quldurluq, dələduzluq cinayətləri edən və üzərində qanunsuz olaraq odlu silah saxlayan ümumilikdə 77 nəfər saxlanılıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumatlara görə, həmin şəxslərdən 52-si narkotik cinayətləri ilə bağlı polisin keçirdiyi əməliyyat nəticəsində tutulub. Onlardan 36-sı barəsində məhkəmə tərəfindən həbs, 16-ı haqqında isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib. Qanunsuz dövriyyədən ümumilikdə 9 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə çıxarılıb.



***Millət vəkili: "Bu kimi hallara qarşı mübarizə sistemli və kütləvi şəkildə, fasiləsiz aparılmalıdır. Təbii ki, vətəndaşlar özləri də bu prosesdə iştirak etməli, ictimai qınaq daha da güclənməlidir"***

**Narkomaniyanı cəmiyyətləri narahat edən sosial problemlərdən biri kimi dəyərləndirən millət vəkili Könül Nurullayeva "Şərq"ə açıqlamasında bildirib ki, həyata keçirilən tədbirlərə baxmayaraq, narkomaniyanın miqyasının genişlənməsi dövlətlərin bu istiqamətdə sərt addımlar atmasını şərtləndirir.** Bütün ölkələr kimi Azərbaycanın da bu bəla ilə aktiv mübarizə apardığını vurğulayan xanım deputat bildirib ki, burada ən narahatedici məqam "ağ ölüm"ün daha çox gənclər üçün təhlükəyə çevrilməsidir: "Nəticə etibarı ilə bu, intellektual potensialın aşağı düşməsinə, genefondun zədələnməsinə səbəb olur. Məlumdur ki, gənc nəslin sağlamlığı, onların sağlam həyat tərzinin təmin olunması əsas prioritetdir. Bu baxımdan dövlət narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizədə ən sərt tədbirlər həyata keçirir. Ölkəmizdə beynəlxalq standartlara uyğun milli normativ hüquqi baza yaradılıb və qanunvericilik sistemi təkmilləşdirilib. "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Prezident fərmanı, eyni zamanda 2000-ci ilə qədər olan dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli proqram hazırlanmasını yada salmaq yerinə düşər. Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanun qəbul olundu. Təsadüfi deyil ki, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının da əsas məqsəd və vəzifələrindən biri gənclərin sağlamlığının qorunması və möhkəmləndirilməsi, sağlam həyat tərzinin təbliğ edilməsi və narkomaniya, toksikomaniya, alkoqolizm və digər neqativ halların profilaktikasıdır".

*Millət vəkilinin sözlərinə görə, bütün tədbirlər bu problemin kökünü kəsməyə, cəmiyyəti ağ ölümdən xilas etməyə yönəlib. Amma təəssüf ki, yenə də gənclər, yeniyetmələr narkotik alverçilərinin toruna düşürlər:* "Narkomanlığa qarşı mübarizədə dövlət və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi olduqca vacibdir. Azərbaycan beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulub. Hesab edirəm ki, narkomanlığa qarşı mübarizənin gücləndirilməsində təbliğat, ictimai maarifləndirmə işinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunması olduqca vacibdir. Qəbul olunan Dövlət proqramlarının icrasına nəzarət güclənməli, gənclərin idmana olan marağı daha da artırılmalıdır ki, bu zərərli vərdişlərdən uzaq olsunlar.

Yəni narkomaniyaya qarşı mübarizə sistemli və kütləvi şəkildə, fasiləsiz aparılmalıdır. Təbii ki, vətəndaşlar özləri də bu prosesdə iştirak etməli, ictimai qınaq daha da güclənməlidir. Çünki bu, yalnız fərdlərin yox, bütövlükdə cəmiyyətin problemidir".

**Şəymən**

**Elan**

Bakı şəhəri, Suraxanı rayonu, Bül-bülə qəsəbəsi, S.Əliyev küçəsi, ev 205 ünvanında yaşayan Nəsirova Yeganə Kamil qızına məxsus "Azərbaycan Sumqayıt Pedaqoji özəl Kolleci" tərəfindən verilmiş BB-II № 003936 seriyalı, 872 qeydiyyat nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2180



## Kainat gözəli dənizin kefini çıxarıb

Azra Akın, həyat yoldaşı və övladları ilə Bodrumda görüntülənib

**Türkiyə və Kainat gözəli Azra Akın həyat yoldaşı Atakan Koru və oğlu Dəmirlə Bodrumda tətil zamanı fotokameralara tuş gəlib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, evləndikdən 1 il sonra övladları Dəmirin dünyaya gəlməsi ilə ana və ata olmanın xoşbəxtliyini yaşayan cütlük ötən gün Bodrumda görüntülənib.

Ortakentdə bir otelin çimərliyində obyektivlərə əks olunan məşhur model əri və 3 yaşlı oğlu Dəmirlə bütün günü dənizin kefini çıxarıb. Uşaqları ilə oyun oynayan cütlüyün şən əhval-ruhiyyəsi gözlərdən qaçmayıb.

*Qeyd edək ki, cütlük 2017-ci ildə ailə həyatı qurub.*

## Oxuyur, həm də yaşayırlar

Kimsəsiz uşaqlar üçün "üzən məktəb" tikilib



**Kambocada üzən "Kompong Luong" məktəbi orada yaşayan kimsəsiz uşaqlar üçün nəzərdə tutulub.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, dünyanın bəzi bölgələri təbii mühitdən asılı olduqlarından, onların sakinləri sözün həqiqi mənasında suda yaşamaq məcburiyyətindədirlər.

Bu ölkədə Tonlesap gölünə səpələnmiş Kompong Luonqun üzən kənd şəbəkəsi var. Kiçik qəsəbələrdən birində turistlərin və yerli sakinlərin ianələri hesabına "üzən məktəb" tikilib, burada bütün ərazilərdən kimsəsiz uşaqlar oxumaqla yanaşı, həm də yaşayırlar. Aşağı mərtəbə tamamilə yaşıllıq zolağına və uşaq meydançasına çevrilib, məktəbdə uşaqlar tənəffüs zamanı sərbəst əylənir, ikinci mərtəbə isə sinif otaqlarının təşkilinə verilir. Təbii tikinti materiallarından istifadə etməklə tikilən məktəbdə enerjiyə qənaət edən sistemlər, o cümlədən günəş panelləri, su toplama və təmizləmə sistemləri və təbii ventilyasiya tətbiq olunub.

## Kral ailəsində gərginlik yaşanır

**II Elizabetin gəlini Birlik Oyunlarına nikah üzüyü olmadan qatılıb**



**II Elizabetin gəlini Keyt Middlton Birminhemdə keçirilən Birlik Oyunlarına nikah üzüyü olmadan qatılıb.**

**Oxu.az xəbər verir ki, bu barədə sosial şəbəkələrdə görüntülər paylaşılıb.**

**Fotolarda şahzadə Uilyam və qızı Şarlotta ilə yarışları izləyən Kembric hersoginiyasının sapfir nikah üzüyünü nazik zinət əşyası ilə əvəzlədiyi görünür.**

**Kral ailəsinin pərəstişkarları və jurnalistlər bunu birmənalı qarşılamayıb.**

***Qeyd edək ki, bir müddət əvvəl Şahzadə Uilyamın Keyt Middltona xəyanət etməsi ilə bağlı şayiələr yayılıb.***

## 12 yaşlı qız kəndirləri çeynəyib, cinayətkardan qaçdı

**Kişinin evinə baxış zamanı iki meyit tapılıb**





**ABŞ-ın Alabama ştatında 12 yaşlı qız onu alkoqol içərək stula bağlayan və bir həftə əsirlikdə saxlayan adamdan qaçıb.**

**Milli.Az bildirir ki, bu barədə Daily Mail məlumat yayıb.**

**Nəşrin məlumatına görə, qız özünü azad etmək üçün kəndirləri dişləməli olub. O, magistral yolda sürücü tərəfindən aşkar edilərək polisə təhvil verilib. Hücum edən şəxs ertəsi gün həbs edilib. Bu 37 yaşlı Xose Paulino Paskual-Reyesdir. Kişinin evinə baxış zamanı iki meyit tapılıb. O, adam öldürmə, adam oğurluğu və insan qalıqları ilə pis rəftarda ittiham olunub. Hücum edəni ölüm cəzası gözləyir, Alabama ştatında buna icazə verilir.**

## Tərəf müqabili oldular



**Türkiyəli aktyor Aytaç Şaşmazın yeni layihəsi bəlli olub.**

**Axşam.az xəbər verir ki, aktyor "Gelecek uzun sürer" adlı ekran işində baş rollardan birini ifa edəcək. Onunla birgə layihədə Nur Fettahoğlu və Metin Çoşkun rol alacaq.**

***Qeyd edək ki, Aytaç sonuncu dəfə "Ada masalı" serialında "Bora" obrazını canlandırıb. Eyni zamanda Metin "Masumlar apartmanı", Nur isə "Kağıt ev" adlı ekran işində rol alıb.***



# Tibbdə inqilab...

## Ölü donuzlardan orqan köçürüləcək



**ABŞ-ın Yale Universitetinin alimləri donuzların öldükdən bir saat sonra qan dövranı və hüceyrələrinin əvvəlki vəziyyətinə qaytara bildiklərini elan ediblər. Bu, yeni texnologiya sayəsində mümkün olub. Alimlər ölü donuzun qan dövranını və ölmüş sayılan hüceyrələri yenidən canlandırıblar. Bununla da insan orqanları daha uzun müddət qoruna biləcək və orqan transplantasiyasında inqilabi dəyişikliyə səbəb olacaq.**

Universitet alimləri ürək fəaliyyətini dayandırdıqdan sonra hüceyrələr və bəzi orqanları qoruyacaq oksigenin ölü bir donuzun vücudunda yenidən dolaşmasını təmin edəcək "OrqanEx" adlı sistem icad edib. Universitet alimtədqiqatçısı doktor Nehad Sestan deyib ki, bu hüceyrələr fəaliyyətlərini dayandırmalı olduqları zamandan saatlar sonra da fəaliyyətlərini dayandırmayıb. Bu, onu deməyə əsas verir ki, ölümdən 1 saat sonra hüceyrələrin ölümünü dayandırmaq mümkündür və bu, orqan nəqlində irəliləyişə, bir çox insanın həyatını xilas etməyə kömək edəcək. Ölüm baş verdikdən sonra beyin hüceyrələri saatlarla diri qalır, ölmürlər, fəaliyyətdə olurlar. Bu, ölüm sonrası nələr baş verdiyini bilməyə çox yaxınlaşdığımızı göstərir.

**Məlahət**



# Alimlər araşdırdı

## Pendir sümük əriməsinin qarşısını alır

**Yeni bir araşdırma "Jarlsberg" pendirinin faydalarını ortaya çıxarıb. Məlum olub ki, bu pendir osteoporozun (sümük əriməsi) qarşısını almağa kömək edir. Norveçdə istehsal olunsa da, "Jarlsberg" İsveçrə tipli pendir, böyük məsamələri olan bir az sərt pendir kimi təsnif edilir.**

İngilis tədqiqatçılar "Jarlsberg" pendirinin sümük sağlamlığını yaxşılaşdırdığını sübut etmiş K2 vitamini ilə zəngin olduğunu üzə çıxarıb. "BMJ Nutrition Prevention & Health" jurnalında dərc olunan araşdırmanın nəticələri göstərib ki, bu pendiri gündəlik istehlak etmək sümüklərin bərpası üçün faydalıdır.

Tədqiqat iştirakçılarının yarısına K2 vitamini baxımından zəif olan kiflənmiş Fransız pendiri "Camembert", digər yarısına isə "Jarlsberg" pendiri verilib. Tədqiqatın müəllifləri "Jarlsberg" istehlakı ilə sümük böyüməsi əlamətlərinin artdığını, "Camembert" qrupunda isə bir qədər azaldığını söyləyib.

Böyük Britaniyadakı "NNEdPro Cambridge" Qlobal Qidalanma və Sağlamlıq Mərkəzinin professoru, Dr. Sumantra Ray deyib:

"Bu araşdırma göstərir ki, kalsium və D vitamini sümük sağlamlığı üçün son dərəcə vacib olsa da, indiyə qədər məlum olmayan digər mühüm amillər də K2 vitaminidir.

London Kral Kollecinin qidalanma və dietetika üzrə fəxri professoru Tom Sanders: "Təsirlər yalnız "Jarlsberg" pendirinə xas deyil. Oxşar faydaları digər sərt, uzun mayalanmış pendirlərdə də müşahidə etmək olar".

Britaniya Qidalanma Fondunun qidalanma üzrə alimi Dr. Simon Steenson: "Jarlsberg" pendirini sümük sağlamlığı üçün faydalı bir qida kimi tövsiyə etmək digər qidalanma tövsiyələri ilə balanslaşdırılmalıdır".

Qeyd edək ki, tərəfdən, dünyada on milyonlarla insanın, əsasən də qadınların osteoporoz xəstəsi olduğu bildirilir. Bu, hər il yüz minlərlə sümük sınmasına səbəb olur.

Mütəxəssislər deyirlər ki, sümük sağlamlığı kifayət qədər kalsium və D vitamini, eləcə də kələm kimi tünd yaşıl tərəvəzlərdə olan K vitamini istehlakından asılıdır.

## İstilər aman vermir

Almaniyada içməli suyu pulsuz paylayırlar



**Almaniyada istilərin yenidən başlanması ilə əlaqədar ölkə şəhərlərinin əksəriyyətində içməli su fontanlarının sayını artırmaq və içməli suyu pulsuz paylamaq qərara alınıb.**

Azərtac xəbər verir ki, yaxın günlərdə havanın temperaturunun yenidən 40 dərəcəyə qədər artacağı gözlənilir. Həkimlər xəbərdarlıq edirlər ki, havalar bərk isti keçən günlərdə orqanizmin susuzlaşmaması üçün çoxlu maye içmək lazımdır. Belə günlərdə içməli su daha çox işlədilir. Ona görə də Almaniyanın bir sıra şəhərlərində küçələrdə içməli su pulsuz paylanır. Bir sıra stansiyalarda və dayancaqlarda su ilə dolu butulkalar almaq, habelə içməli su fontanlarında susuzluğu yatırmaq olar. Almaniyanın bütün federal əyalətlərinin iri şəhərlərində içməli su ilə dolu sisternlər quraşdırılıb. Ölkədəki 6200-dən yanacaqdoldurma stansiyasında insanlar boş butulkaları təmiz içməli su ilə pulsuz doldura bilərlər. Şəhər sakinlərinin çoxu gəzməyə çıxanda plastik butulkalar götürür, bu butulkaları pulsuz doldurmaq mümkündür.

Bu kampaniya misli görünməmiş istilər azalana qədər davam edəcək.

## Mədə kiçiltmə əməliyyatı faciə ilə bitdi

20 gün süni nəfəs aparatına qoşulub, lakin oyanmayıb



**Mədə kiçiltmə əməliyyatı 52 yaşlı qadının ölümünə səbəb olub.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, hadisə Türkiyədə, Afyonkarahisar Tibb Elmləri Universitetinin xəstəxanasında baş verib. 2 övlad anası, 52 yaşlı Sərpil Aydəmir mədə kiçiltmə əməliyyatı üçün bu xəstəxanaya müraciət edib. Əməliyyatdan 2 gün sonra qadın xəstəxanadan çıxıb. Evinə qayıtdıqda səhhəti ağırlaşıb və yenidən xəstəxanaya gətirilib. 2 ay reanimasiya şöbəsində müşahidə altında saxlanıb. Qadının İHA-ya danışan bacısı oğlu Gökhan Kocaman xalasının həkim tərəfindən əməliyyata razı salındığını deyib: "Xalamda iltihablı revmatizma vardı. Amma cərrah-həkim bunun əməliyyat üçün problem olmadığını söyləyərək xalamı yola gətirdi. Daha sonra xalam əməliyyat edildi. Evə gəldikdən 3 gün sonra isə vəziyyəti pisləşdi. Övladları onu xəstəxanaya apardılar, amma orada ilkin müdaxilə gec başlayıb. Xalam huşunu itirdikdən sonra onu reanimasiya şöbəsinə yerləşdiriblər. 20 gün süni nəfəs aparatına qoşulub, lakin oyanmayıb. Həkimdən məlumat almaq istədik, onunla əlaqə yarada bilmədik. Bizimlə əlaqə saxlamadı, məlumat vermədi. Həkim köməkçisi vasitəsilə bizə "qorxmayın, ölüm riski yoxdur" dedi, amma xalam vəfat etdi". Qadın əməliyyatdan sonra evə buraxıldığında ağzından, bağırsağından qan gəlib. Daxili qanaxma başlayıb. Xəstə daxili qanaxmadan həyatını itirib. G.Kocaman xalasının ölümüylə bağlı xəstəxana və həkimdən şikayətçi olduqlarını və məhkəməyə müraciət etdiklərini bildirib. Doğmaları qadının həyatının son dəqiqələrini videoya çəkiblər. Videoda qadının qanlar içində olduğu görünür.

**Məlahət**

## İtin hücumuna məruz qalan qızın əlləri niyə bağlıdı?

Valideynləri bu görüntülərdən şikayət edəcək



**Pitbull cinsi itin hücumuna məruz qaldıqdan sonra xəstəxanada uzun müddət müalicə alan, bədəninin zədələnmiş hissələrinə dəri nəql edilən 4 yaşlı Asiyə Türkiyənin sevimlisinə çevrilmişdi.**

Bu günlərdə qızcığazla bağlı yayılan görüntülər isə görənləri şoka salıb. Asiyə boynuna ip salınmış, əlləri bağlanmış vəziyyətdədir. Anası isə "otur, ya da dilini çıxart. Bundan sonra sənə telefon yox, küçəyə çıxmaq, parka getmək yasaq, uşaqlarla oynamaq yasaq, oyuncaq yasaq! Bundan sonra səni bu otaqda bağlı saxlayacam, qarşına yeməyi də itə verilən kimi qoyacam. Oturub yeyərsən " dediyi görünür. Görüntülərin nə zaman çəkildiyi və kim tərəfindən yayıldığı bilinmir. Asiyənin atası Hüseyin A. isə övladlarına heç bir zaman işgəncə etmədiklərini söyləyərək bu görüntülərlə bağlı polisə şikayət etdiyini deyib: "Övladımıza heç vaxt şiddət göstərmədik. Bu görüntülər qəsdən yayılıb. Biz övladımıza kiçicik bir zərər də verməmişik. Bu görüntülərlə bağlı şikayət edəcəyəm".

**Məlahət**